BU YAZ MƏNƏ QƏM GƏTİRDİ
AÇILMAYIR KEFİM BU YAZ.
ÇOXLARI TƏK MƏN DEMİRƏM

DƏRDİM KİTABLARA SIĞMAZ –
DƏRDLƏRİM BİRCƏ SƏTİRDİ:
SƏNSİZ YAŞAYA BİLMIRƏM...



APREL
2021

XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİ



*Bu mənim həyatımdır...*
*Bu həyatı mən yaşamışam...*
*Və peşiman deyiləm...*

Nailəxanım
İsayeva

# Nailəxanım İsayeva

*Bir pedaqoq kimi, mən şagirdlərin məhz mənim kimi düşünməsinə çalışmıram, məqsədim onların özünü düşündürməkdir. Biz onlara həqiqətə gedən yollar haqqında bildiklərimizi öyrətməliyik, həqiqətin nə olduğunu isə şagirdlər özləri əldə etməlidir.*

*Təhsil əyalətçiliyi deyil, milli və dünyəvi dəyərləri öyrətməlidir; insan həm vətəndaşı olduğu ölkənin, həm də qloballaşan dünyada o qədər də böyük olmayan Yer kürəsinin vətəndaşıdır.*

*Uşaqlarda özünə inam yaratmaq məktəbin mühüm vəzifəsidir. Onlar yalnız böyüyəndə deyil, bu gün də böyük işlər görə biləcəklərini anlamalıdırlar.*

*Uşaqlar dünyanı dəyişmək, onu daha gözəl etmək barədə düşünməli, fərdin və cəmiyyətin inkişafında elm və mədəniyyətin həlledici rolunu görməlidirlər.*

# ONLAR QOŞA QANAD İDİLƏR...



Nailəxanımı Hamlet müəllim vasitəsilə tanıdım. Hamlet müəllim çox iradəli, dözümlü və gələcəyi hədəfləyə bilən bir insandır.

Hələ 90-cı illərdə o, "özəl universitet yaradıram" deyəndə, çoxları başa düşmürdülər ki, özəl universitet nədir, heç o zaman bizim təhsil qanunvericiliyimizdə özəl məktəblərin yaradılması haqqında qanun yox idi. SSRİ -nin qanunları ilə işləyirdik. Bizim özümüzün təhsil qanunumuz 1992-ci ilin sonlarında qəbul olundu. Lakin buna qədər Hamlet müəllim o işə baxan insanları inandırdı və hökumətin qərarı ilə Azərbaycanda ilk dəfə ingilisdilli özəl universitet yaradıldı. Bu böyük addım idi, sonralar baxıb onun yolunu tutanlar oldu.

O zamanlar Hamlet müəllim nazirliyə gəlirdi, bərabər müzakirələr aparır, planlaşdırırdıq, universitetin əsasnaməsi hazırlanırdı. Biz Hamlet müəllimlə işdə görüşürdük, bir gün axşam isə məni evlərinə dəvət etdi və onda mən Nailəxanımı tanıdım. Bilirdim ki, gürcüstanlı deyil, Bakıda doğulub, şəhər qızıdır.

Amma onların evinə gedəndə təəccübləndim. Mən gördüm ki, Hamletin qardaşlarının hamısı oradadır. Onlar evdə sərbəst hərəkət edir, rahat davranırdılar. Nailəxanım o qədər xoşbəxt idi ki... Onlara qulluq edirdi, hər kəs də evdə öz işi ilə məşğul olurdu. O andan mən hiss etdim ki, Nailəxanım necə dözümlü və həyatı bilən qadındır – "Hamleti qəbul etmişəmsə, deməli onun ailəsi də mənimdir, mənim qəbulumdur".

Beləliklə, XƏZƏR Universiteti təsis olundu, bizim Hamlet müəllimlə çox ciddi söhbətlərimiz olurdu. Çünki o, bu universiteti bizim Azərbaycan universitetləri timsalında deyil, ingilisdilli, Amerikanın təhsil qanunlarına uyğun, kredi sisteminin tətbiqi ilə yaradırdı. Burada qiymətləndirmənin çoxballı sistemi tətbiq olundu. Hələ o zaman çoxları bunun nə olduğunu başa düşmürdülər. Əlbəttə ki, bu bizim qanunvericiliyə tam zidd idi. Açıq deyirəm ki, nazirlik olaraq, bu universitetlə belə formada fəaliyyət göstərməyə ixtiyarımız yox idi. Lakin görürdük ki, Avropa Şurasına gedirik və artıq təhsil sistemimiz də ora qoşulacaq. Onlar çoxballı sistemlə qiymətləndirmə, kredi sistemiylə işləyirdilər. O zaman təhsil nazirimiz hörmətli alim Misir Mərdanov idi. Mən ona dedim ki, Misir müəllim, sınaq universiteti kimi bura inkişaf etsin. Sabah keçid zamanı əliyalın qalmayaq, təcrübəmiz olsun. Elə də qəbul olundu. Çoxballı sistemi 5 ballı sistemə tətbiq etdik, tələbənin diplomuna yazılanda, həm bizim qiymət sistemilə, həm də yanında çoxballı qiymətlər yazılırdı.

Sonradan yaxşı bir ideya da yarandı. Hamlet müəllim XƏZƏR Universiteti nəzdində yaxşı ingilisdilli məktəb də yaratdı. Çünki XƏZƏR Universitetinə çox az tələbə gəlirdi. Bizim orta məktəbləri bitirənlər XƏZƏRlə ayaqlaşa bilmirdilər. Dil baryeri yaranırdı. 1998-ci ildə artıq DÜNYA Məktəbi də yarandı. Təxminən, 5 ildən sonra məktəbin öz məzunları universitetə gəlməyə başladılar.



SONRADAN YAXŞI BİR İDEYA DA YARANDI. HAMLET MÜƏLLİM XƏZƏR UNİVERSİTETİ NƏZDİNDƏ YAXŞI İNGİLİSDİLLİ MƏKTƏB DƏ YARATDI. ÇÜNKİ XƏZƏR UNİVERSİTETİNƏ ÇOX AZ TƏLƏBƏ GƏLİRDİ. BİZİM ORTA MƏKTƏBLƏRİ BİTİRƏNLƏR XƏZƏRLƏ AYAQLAŞA BİLMİRDİLƏR. DİL BARYERİ YARANIRDI. 1998-Cİ İLDƏ ARTIQ DÜNYA MƏKTƏBİ DƏ YARANDI.

TƏXMİNƏN, 5 İLDƏN SONRA ARTIQ MƏKTƏBİN ÖZ MƏZUNLARI UNİVERSİTETƏ GƏLMƏYƏ BAŞLADILAR.



Hamlet müəllimlə Nailəxanımı məhz o dövrdə Bakıda tapmaq olmurdu. Onlar ölkələri gəzir, universitetlərdə, təhsil ocaqlarında olur, təcrübələri öyrənir, dünya universitetlərilə çoxlu sayda müqavilələr bağlayırdılar. Çalışırdılar ki, XƏZƏR Universiteti dünya universitetlərindən geri qalmasın. Ən əsası da, onlar universiteti təkcə ödənişdən gələn pulun hesabına deyil, çoxlu sayda beynəlxalq qrant layihələrində iştirak etməklə, neçə yüz minlərlə udduqları qrantlarla inkişaf etdirirdilər. Həmin qrantlar əsasında müəllimləri xarici ölkələrə ixtisasartırmaya, təcrübə keçməyə göndərir, onlar 5 ay, 1 il xaricdə qalırdılar, həm də o pulun hesabına tədris üçün bazalar, laboratoriyalar alırdılar. Mən gördüyümü deyirəm, inanın ki, onların yaratdıqları maddi-texniki bazaların 90 faizindən çoxu universitetin ödəniş pulları ilə əldə olunmamışdı, layihələrdə qazanılan pulların hesabına alınmışdı. Həmin qrantların hesabına 3-cü kursdan sonra tələbələri xaricdə təhsillərini davam etdirməyə göndərirdilər.

Hamlet müəllim şahmat oynayandır və bu işləri də şahmatçı kimi qururdu. Ona görə də səhv etmirdi, risqi az olurdu. Daha sonra onlar gözəl bina tikdilər, zamanla məktəbin filiallarını yaratdılar və məni ən çox maraqlandıran da, DÜNYA Məktəbi idi. Nailəxanım məktəbdə rəhbərliyə başladı, o, diktator kimi işləmirdi. Nailəxanım oranı ailə başçısı kimi idarə edirdi. Mənim DÜNYA Məktəbi ilə sıx əlaqələrim var. Orada tanıdığım müəllimlər Nailəxanımın başçılıq etdiyi o kollektivdə çalışdıqlarına görə elə sevinirlər ki...

> NAİLƏXANIM MƏKTƏBDƏ RƏHBƏRLİYƏ BAŞLADI, O, DİKTATOR KİMİ İŞLƏMİRDİ. NAİLƏXANIM ORANI AİLƏ BAŞÇISI KİMİ İDARƏ EDİRDİ. MƏNİM DÜNYA MƏKTƏBİ İLƏ SIX ƏLAQƏLƏRİM VAR. ORADA TANIDIĞIM MÜƏLLİMLƏR NAİLƏXANIMIN BAŞÇILIQ ETDİYİ O KOLLEKTİVDƏ ÇALIŞDIQLARINA GÖRƏ ELƏ SEVİNİRLƏR Kİ... BİLİKLİ MÜƏLLİMLƏRİ İRƏLİ ÇƏKİRLƏR, TƏCRÜBƏSİZLƏRİ KƏNARLAŞDIRMIRLAR, ONLARA ÖZLƏRİNİ İNKİŞAF ETDİRMƏK ÜÇÜN ŞƏRAİT YARADIRLAR.

Bilikli müəllimləri irəli çəkirlər, təcrübəsizləri kənarlaşdırmırlar, onlara özlərini inkişaf etdirmək üçün şərait yaradırlar.

Onlar Sumqayıtda və Gəncədə filiallar yaratdılar. DÜNYA Məktəbi özünün ənənəsi olan, başqa ingilisdilli məktəblərə bənzəməyən təhsil ocağıdır. Oranın xüsusi hədəfləri var, məzunları hansı ölkədə, hansı universitetdə təhsillərini davam etdirəcəklərini əvvəlcədən bilirlər.

Bu məktəblə universitet başqa özəl təhsil müəssisələri kimi zəif, oxuya bilməyən şagird və tələbəni təhsil haqqı na görə saxlamağa, zorla oxutdurmağa çalışmır. Hamlet müəllim deyir ki, kim ki bizdə oxuya bilmir, qapı açıqdır. Elə zamanlar olub ki, yüzə yaxın tələbə başqa universitetlərə köçürülüb. Çünki burada tapşırıq, neqativ hallar yoxdur, hər cür şərait yaradılır ki, oxuyasan. Həm universitet, həm də Nailəxanımın rəhbərlik etdiyi məktəb müəllimlə müqavilə bağlayır. Müəllim üçün hər bir

şəraiti yaradır və müəllim də bütün gücünü qoyaraq şagird və tələbələrə bilik verir. O təkcə dərs deməklə kifayətlənmir, uşaqların əsl vətəndaş kimi yetişdirilməsində, dünyagörüşünün genişləndirilməsində məsuliyyət daşıyır. Əgər müəllim FİZİKA, COĞRAFİYA dərsində, yeri gəldikdə, Nizamidən, Füzulidən bir beyt oxumursa, tariximizə, dilimizə, mədəniyyətimizə, milli ənənələrimizə sevgi və hörmət hissi aşılamırsa, o, əsl müəllim deyil. Bu ənənə məhz DÜNYA Məktəbində mövcuddur. Bu hər bir müəllimin vətəndaşlıq borcudur.

Hamlet müəllimlə Nailəxanım universitetə də, məktəbə də məhz belə müəllimləri cəlb edirdilər. Müəllimlər fəxrlə deyirlər ki, mən XƏZƏR Universitetinin, DÜNYA Məktəbinin müəllimiyəm. Çünki onların hüquqları qorunur, işinin səviyyəsinə görə təşəkkür və əlavə maaş qazanırlar.

DÜNYA Məktəbi artıq böyük və tanınmış

MÜƏLLİM ÜÇÜN HƏR BİR ŞƏRAİTİ YARADIR VƏ MÜƏLLİM DƏ BÜTÜN GÜCÜNÜ QOYARAQ ŞAGİRD VƏ TƏLƏBƏLƏRƏ BİLİK VERİR. O TƏKCƏ DƏRS DEMƏKLƏ KİFAYƏTLƏNMİR, UŞAQLARIN ƏSL VƏTƏNDAŞ KİMİ YETİŞDİRİLMƏSİNDƏ, DÜNYAGÖRÜŞÜNÜN GENİŞLƏNDİRİLMƏSİNDƏ MƏSULİYYƏT DAŞIYIR. ƏGƏR MÜƏLLİM FİZİKA, COĞRAFİYA DƏRSİNDƏ, YERİ GƏLDİKDƏ, NİZAMİDƏN, FÜZULİDƏN BİR BEYT OXUMURSA, TARİXİMİZƏ, DİLİMİZƏ, MƏDƏNİYYƏTİMİZƏ, MİLLİ ƏNƏNƏLƏRİMİZƏ SEVGİ VƏ HÖRMƏT HİSSİ AŞILAMIRSA, O, ƏSL MÜƏLLİM DEYİL. BU ƏNƏNƏ MƏHZ DÜNYA MƏKTƏBİNDƏ MÖVCUDDUR. BU HƏR BİR MÜƏLLİMİN VƏTƏNDAŞLIQ BORCUDUR.

HAMLET MÜƏLLİMLƏ NAİLƏ XANIM UNİVERSİTETƏ DƏ, MƏKTƏBƏ DƏ MƏHZ BELƏ MÜƏLLİMLƏRİ CƏLB EDİRDİLƏR. MÜƏLLİMLƏR FƏXRLƏ DEYİRLƏR Kİ, MƏN XƏZƏR UNİVERSİTETİNİN, DÜNYA MƏKTƏBİNİN MÜƏLLİMİYƏM. ÇÜNKİ ONLARI TAM HÜQUQLARI QORUNUR, İŞİNİN SƏVİYYƏSİNƏ GÖRƏ TƏŞƏKKÜR VƏ ƏLAVƏ MAAŞ QAZANIRLAR.



məktəbdir. Biz Nailəxanımla tez-tez danışır, məsləhətləşirdik. Yeri gəldikdə nazirliyin mütəxəssislərini ora göndərirdim, müəyyən məsələlər müzakirə olunur, onlar pedaqoji şurada iştirak edirdilər.

Nailəxanım özü bir məktəb idi. O, təkcə DÜNYA Məktəbinin rəhbəri deyildi. İşçilərin hamısına nümunə idi. Mən hər zaman düşünürdüm ki, Allah-təala Hamlet müəllimlə Nailəxanımı bir-birinin taleyinə yazmışdı. İlahi, insanlar nə qədər bir-birini başa düşərmiş... Mən onlarda olanda elə çox məqamların şahidi olmuşam ki... Bir-birinə baxışları, müraciətləri... Nələr yox idi o

baxışlarda?! – Orada sevgi də, hörmət də, məhəbbət də, dostluq da vardı. Bu insanlar bölüşürdülər, evdə təkcə ailə məsələləri müzakirə olunmurdu, məktəbin də, universitetin də söhbətləri gedirdi.

Hamlet müəllim hələ sovet vaxtında xaricdə işləyir, dərs verirdi. O, Azərbaycanda oturub təhsil ocağı yaratmadı, o, beynəlxalq təcrübənin içindən gəldi.

Nailəxanım gözəl insan, dəyanətli həyat yoldaşı, yaxşı ana, təhsil qurucusu, müəllim idi. Deyərdim ki, Azərbaycanda təhsil qurucusu sözü deyiləndə, gözümün qabağına Hamlet müəllim gəlir. Baxmayaraq ki, özəl universitetdə rəhbərlik edir, yeni təhsil qanununun hazırlanmasında, beynəlxalq əlaqələrin qurulmasında biz Hamlet müəllimlə Nailəxanımın məsləhətlərindən istifadə edirdik. Onlar yorulmadan, həvəslə bizimlə çalışır, hətta alternativ olaraq öz layihələrini bizə təqdim edirdilər. Onlar təkcə bu günü deyil, sabahı, 5 il sonranı da düşünürdülər.

Nə qədər ki, universitet var, məktəb var, Nailəxanım var! Mən təklif edirəm ki, ən yaxşı oxuyan tələbələr üçün Nailəxanım İsayeva adına təqaüd müəyyən edilsin. İnanıram ki, Hamlet müəllim bunu mütləq edəcək. Çünki çox universitetlərdə artıq bu qanunvericiliklə təsdiq olunub. Dövlət tələbəyə təqaüd verir, eyni zamanda da ən yaxşı tələbə statusunu alanlara universitet özü də elmi şuranın qərarı ilə təqaüd ayırır. İnanıram ki, tələbənin həyat tarixçəsinə Nailəxanım İsayeva adına təqaüdə layiq görüldüyü yazılacaq.

Allah ona qəni-qəni rəhmət eləsin!

DÜNYA Məktəbi daha da inkişaf etməlidir!

O ailə tək bir elin-obanın ailəsi deyil! O ailə Azərbaycanın ailəsidir! Onlar xoşbəxt ailə idilər... Hər adama qismət olmur... Onlar həm hisslə, həm də ağılla bir-birini sevirdilər. Hisslə olan münasibət ötəridir. Həm də ağılla münasibət qurulmalıdır. Onlar bütün gənclərə, digər ailələrə böyük bir nümunə idilər. Hamlet müəllim tanınmış riyaziyyatçıdır, eyni zamanda tarixçidir, filosofdur, filoloqdur. O, dərin biliklərə malikdir. Nailəxanımla, bu mənada , onlar bir-birini tamamlayırdılar. **ONLAR QOŞA QANAD İDİLƏR, QOŞA QANAD OLMAQ İSƏ ÇOXLARINA NƏSİB OLMUR!**

**"NAİLƏXANIM ÖZÜ BİR MƏKTƏB İDİ. O TƏKCƏ DÜNYA MƏKTƏBİNİN RƏHBƏRİ DEYİLDİ. İŞÇİLƏRİN HAMISINA NÜMUNƏ İDİ. MƏN HƏR ZAMAN DÜŞÜNÜRDÜM Kİ, ALLAH-TƏALA HAMLET MÜƏLLİMLƏ NAİLƏXANIMI BİR-BİRİNİN TALEYİNƏ YAZMIŞDI. İLAHİ, İNSANLAR NƏ QƏDƏR BİR-BİRİNİ BAŞA DÜŞƏRMİŞ... MƏN ONLARDA OLANDA ELƏ ÇOX MƏQAMLARIN ŞAHİDİ OLMUŞAM... BİR-BİRİNƏ BAXIŞLARI, MÜRACİƏTLƏRİ... . NƏLƏR YOX İDİ O BAXIŞLARDA?! – ORADA SEVGİ DƏ, HÖRMƏT DƏ, MƏHƏBBƏT DƏ, DOSTLUQ DA VARDI. BU İNSANLAR BÖLÜŞÜRDÜLƏR, EVDƏ TƏKCƏ AİLƏ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMURDU, MƏKTƏBİN DƏ, UNİVERSİTETİN DƏ SÖHBƏTLƏRİ GEDİRDİ.**

İlham Pirməmmədov

Riyaziyyat üzrə
elmlər doktoru, professor
Azərbaycan Respublikasının Əməkdar Müəllimi,
Azərbaycan Texniki Universitetinin
Elm və texnika işləri üzrə prorektoru



# BİZ EYNİ DÜŞÜNÜRÜK...

*Bir-birimizlə yaşadığımız bu uzun illər ərzində həyatın hər üzünü - çətinliklərini, yaxşılıqlarını, sevincini, qəmini görmüşük. Xəstəlik də olub, yəni hər şey olub həyatımızda. Bu bizi birləşdirib, bir edib...*

*Mənim öz hisslərim var, hansı ki, onlarla yaşayıram, bəzən o hisslərə qapanıram. Onun da öz hissləri var. Və biz bir-birimizin dəruni hisslərinə dəymirik, qarışmırıq. O sarı simlərə toxunmuruq.*

*Onun düşüncələrində nələrsə var ki, mənə demək istəmir. Mən də heç zaman maraqlanmıram ki, bunu mənə niyə demədin, niyə danışmadın?! Mənim özümün də var, bəlkə də o, bunu bilir, bəlkə də bilmir, deyə bilmərəm... Amma belədir də, yaşayırıq və həyatdan zövq alırıq...*

*Çətinliklərimiz bizi birləşdirdi və bu günə gətirib çıxartdı. Müəyyən dərəcədə nələrəsə nail olduq.*

*Bizim ikimizin də içində təmizlik, dürüstlük və saflıq var. Mən heç vaxt Hamletin əqidəsinə, qoyduğu qanunlara qarşı çıxmamışam, onları pozmamışam.*

*Hər bir insanın əqidəsi olmalıdır və o əqidənin də ardınca getməlidir. Əqidəyə sadiq qalaraq arzu və ideyalarını həyata keçirməlidir insan.*

*Hamlet rüşvətsiz, neqativ məqamları olmayan bir universitet yaratdı, öz prinsiplərinə sadiq qaldı, hər zaman öz yolu ilə getdi. Mənə çox zənglər, xahişlər oldu, kömək istədilər. Mən "yox" dedim, onun prinsiplərinə qarşı çıxmadım.*

*Fikrindən dönmür, yolundan dönmür, məni də buna öyrətdi, onun bütün cəhətlərini qəbul etdim.*

*Biz belə yaşadıq...*

*Nailəxanım İsayeva*

# ƏN İFTİXARLI YOL-NAİLƏXANIM YOLUDUR...

> DEYƏRDİM Kİ, DÜNYANIN ƏN GÖZƏL SÖZLƏRİNİ NAİLƏXANIMIN ADINA ÜNVANLAMAQ OLAR...



Nailəxanımı çox gənclik illərimdən tanıyıram...

Deyərdim ki, dünyanın ən gözəl sözlərini Nailəxanımın adına ünvanlamaq olar...

Bir ilin içində iki dəfə ANA itirdim. Aylar öncə anamı itirəndə hansı hissləri yaşamışdımsa, əziz Nailəxanımın ağır xəbərini eşidəndə, həmin duyğuları təkrar yaşadım. Ona çox bağlı idim...

Anam vəfat edəndən 40 gün sonra məni yanına çağırdı. Onu görəndə kövrəlib ağladım. Mənə qətiyyətlə bu sözləri dedi:

- Göz yaşlarını sil, mama yoxdursa da, mən varam! Ürəyindəkiləri bölüşmək istəsən, mənim yanıma gəl.

Ona görə də Nailəxanımı itirəndə, təkrar anamı itirdim... Xəstəlik son vaxtlarda onu çox üzürdü. Ağrıları olurdu. Lakin elə iradəli idi ki, heç vaxt ağrılarından danışmazdı, bədbinliyə qapanmazdı. Bir dəfə ağrı-acılarının güclənən vaxtında gileyləndi amma.

Ona dedim:

- Nailəxanım, Siz çox güclü xanımsınız. Xəstəliyə güc gələcəksiniz, biz buna inanırıq. Axı biz də Sizə baxıb ruhlanırıq, gücümüzü Sizdən alırıq...

Gülümsünərək:

- Mənə baxıb ruhlanırsan?!

- Bəli, mən şəxsən Sizdən ruhlanıram - dedim.

Sevinirdi bu sözlərdən , gülürdü, xoşlanırdı. Çox səmimi idim, həqiqətən də hər dəfə Nailəxanımla görüşəndə ondan enerji alırdım. "Hər şey əla olacaq, sən işində möhkəm olmalısan" deyirdi mənə...





HƏTTA DÜŞÜNMÜŞƏM Kİ, DÜNYA MƏKTƏBİNDƏ TƏHSİLİN BU SƏVİYYƏDƏ YÜKSƏK OLDUĞUNU BİLSƏYDİM, OĞLUMUN BURADA TƏHSİLİNƏ İMKAN YARADARDIM.

Baxmayaraq ki, mən XƏZƏR Universitetində Potensial Direktorlar Kursunu uğurla bitirmişdim, bir təhsil kompleksinin direktoru olmaq mənə son dərəcə məsuliyyətli görünürdü. Yeni işə başlayanda çox həyəcanlanırdım. Bu məsələdə də Nailəxanım özü mənə dayaq olurdu.

Mən DÜNYA Məktəbinə təhsilin içindən gəlmişəm. Dövlət məktəbində 16 il direktor müavini olmaqla bərabər, tədris etmişəm. Tədrisin içində olan adam kimi dövlət məktəbi ilə DÜNYA Məktəbinin fərqinin böyüklüyünü hiss etmişəm.

Keçən il burada çox dərsləri izləmişəm, tədbirlərdə iştirak etmişəm. Hətta düşünmüşəm ki, DÜNYA Məktəbində təhsilin bu səviyyədə yüksək olduğunu bilsəydim, oğlumun burada təhsilinə imkan yaradardım.

DÜNYA Məktəbində çalışdığım üçün çox xoşbəxt idim. Var-qüvvəmlə, xüsusi həvəslə öz işlərimi yerinə yetirirdim. Günlərin birində, DÜNYA TƏHSİL KOMPLEKSİNİN direktoru təyin olundum.

Burada çalışdığım az müddətdə Nailəxanımın tövsiyələrindən faydalandım, Onun mütərəqqi fikirlərilə tanış oldum, çox şeylər öyrəndim, həyatımın mükəmməl dərslərini aldım.





HƏYATDA YOLLAR MÜXTƏLİFDİR... YOLLAR ÇOXDUR... ƏN İFTİXARLI YOL NAİLƏXANIM YOLUDUR Kİ, BU ŞƏRƏFLİ YOLDA TANRI HAMIMIZA YAR OLSUN!

NAİLƏXANIMIN DÜNYA MƏKTƏBİ KİMİ ZİYALI TƏHSİL OCAĞINDA ÇALIŞMAQ TƏKLİFİ MƏNİM ÜÇÜN İDEALLARLA YAŞAMAQ VƏ YARATMAQ KİMİ BİR MÜHİTƏ DAXİL OLMAQ İDİ.

Bütün bunları yaza-yaza gözlərimin yaşını saxlaya bilmirəm. Nailəxanım üzərimə böyük bir vəzifə, məsuliyyət qoydu. Bu təkcə onun yaradıb-qurduğu müəssisədə rəhbərlik etmək vəzifəsi deyil, ən ümdəsi Nailəxanımın ideyalarının, qoyduğu ənənələrinin layiqincə davam etdirilməsidir.

Nailəxanıma söz vermişdim ki, layiqli şəkildə Onun yolunu davam etdirəcəyəm.

Həyatda yollar müxtəlifdir... Yollar çoxdur... Ən iftixarlı yol Nailəxanım yoludur ki, bu şərəfli yolda Tanrı hamımıza yar olsun!

Nazpəri Bayramova
DÜNYA TƏHSİL KOMPLEKSİNİN DİREKTORU

# İkimizdən birimiz

Hamlet İsaxanlı

İkimizdən birimiz
Dünyaya gəlməsəydik...
Günəş nur saçmağında,
Qartallar uçmağında,
Davam edərdi, gülüm.
Eşq coşanda sinədə
Qız oğlanlar yenə də
Yallı gedərdi, gülüm.
Bizsizdə həyat vardı,
Boş qalmazdı yerimiz;
Qiyamətmi qopardı,
İkimizdən birimiz
Dünyaya gəlməsəydik?!

Günəş aya baxmasa,
Ay yerə nur saçarmı?
Qoşa qanad taxmasa,
Quşlar şövqlə uçarmı?
İkimizdən birimiz
Dünyaya gəlməsəydik,
Bu günü görməsəydik,
Görün nə baş verərdi.
Kim ağlar, kim gülərdi?
Bizə nə dərdi, gülüm,
Dünyaya gəlməyimiz,
Sevib sevilməyimiz
Yazı qədərdi, gülüm.

Dünyada tam ahəng var
Tənha ulduzlar yanar,
Aləm nura boyanar,
Milyonlara ruh verər
Bir qəlbdəki duyğular
Qığılcımdan od törər,
Damcılardan dalğalar
Zərrədə saysız hünər,
Hər ahəngdə min rəng var,
Dünyada tam ahəng var.

Bir söz deyim müxtəsər,
Məhəbbətdir hər əsər.
Bir vurmazdı qəlbimiz,
Yazılmazdı şerimiz
İkimizdən birimiz
Dünyaya gəlməsəydik
Dünyanı eşq yaşadar,
Vurğunluqdan xoş nə var?!
Kim deyər ki, sevdalar
Gəldi gedərdi, gülüm?!
Hamlet İsaxanlı.

# AYRILIĞIN HAVASI AĞIR OLURMUŞ YAMAN...





**Mərufə Mədətli**
DÜNYA Məktəbinin
Azərbaycan və rus bölmələrinin
tədris işləri üzrə direktoru

HƏR KƏSƏ SEVİNC BƏXŞ EDƏN, ƏTRAFA XOŞBƏXTLİK SAÇAN DÖRD QIZ ANASI İDİ NAİLƏXANIM.

İllərin süzgəcindən süzülüb gələn nağılabənzər bu xatirələr mənim üçün nə qədər əzizdir, çünki onlar həyatımın ayrılmaz parçasına çevrilmiş Dünya məktəbinin həmtəsisçisi Nailə xanım İsayeva ilə bağlıdır.

1985-ci ildə 265 saylı məktəbdə pedaqoji fəaliyyətə başladım. Təbiətən çox sosial olmayan, yalnız öz işi ilə məşğul olan biri idim. Əlbəttə, indi illər məni də çox dəyişib. Qəribədir... Şagirdlərlə çox tez ünsiyyətə girə bildiyim halda, böyüklərlə ünsiyyət qurmaqda çətinlik çəkirdim, bəlkə də, uşaq kimi çox utancaq olmağımdan irəli gəlirdi.

Tez-tez dəhlizdə bir xanım müəllimənin mənə sevgi ilə baxan baxışları ilə rastlaşırdım. Orta boylu, qarayanız, gözləri işıqlı, dodaqlarından təbəssüm əskik olmayan, şirin, cazibədar, mehriban... Hər kəsə sevinc bəxş edən, ətrafa xoşbəxtlik saçan 4 qız anası idi Nailəxanım. İnsanları ətrafında necə toplaya bilirdi. Tənəffüslərdə hamı onun ətrafına toplanardı, şirin-şirin söhbət edərdilər. Bəli, Nailəxanım belə qibtə ediləcək bir xanım idi.

Söhbətlərə müdaxilə edə bilmirdim, axı söyləmişdim, çox qaynayıb-qarışan deyildim. Bax beləcə mən Nailəxanımı sevdim, onun sevgisi qəlbimə axdı.

1991-ci il idi. Bilmirəm, nə olmuşdu, amma artıq Nailəxanımı məktəbdə görmürdüm. Bir gün eşitdim ki, Nailəxanım və riyaziyyat sahəsində böyük uğurlara imza atmış həyat yoldaşı Hamlet İsaxanlı Azərbaycanda ilk özəl ali məktəb – Xəzər Universitetini yaradıblar.

1998-ci ilin baharı idi. Anamı itirmişdim. Böyük kədər içində idim. Bir yandan ana itkisi, bir yandan məktəb həyatında yaşadığım ədalətsizliklər, haqsız münasibətlər, sıxıntılar... Sanki boğulurdum, havam çatmırdı.

Həyatda heç bir hadisə təsadüf deyil, zərurətdən baş verir. Heç ağlıma da gəlməzdi ki, bir gün Nailəxanım məni Xəzər Universitetində işləməyə dəvət edəcək. Görüşdük. Nailəxanımın tövsiyəsi ilə məni ingilis dili kafedrasında saat



hesabı müəllim kimi işə qəbul etdilər. Elə bil yeni bir aləmə düşmüşdüm. Hər yerdən yenilik, qayğı, sağlam rəqabət ətri gəlirdi. İnsanda gecə-gündüz çalışmaq, yaratmaq həvəsi aşıb-daşırdı. Bu mühit mənim hər zaman arzuladığım bir mühit idi. Burada çalışan insanlar da fərqli insanlar idi, seçilmişlər idi. Gülərüz, çalışqan, həvəsli, yaradıcı... Bəli, Hamlet İsaxanlı və Nailəxanım İsayevanın birlikdə yaratdıqları, qurduqları ilk özəl ali məktəb – Xəzər Universiteti füsunkar bir aləm idi.

> BAX BELƏCƏ MƏN NAİLƏXANIMI SEVDİM, ONUN SEVGİSİ QƏLBİMƏ AXDI.



## NAİLƏXANIMLA BİRLİKDƏ "YAXŞI MƏKTƏB" QURMAQ ARZUSU İLƏ YOLA ÇIXDIQ...

Bax beləcə mən də Xəzər ailəsinin bir üzvü oldum. Taleyimi bu insanların taleyinə bağladım.

Nailəxanımla tez-tez görüşür, söhbətlər edir, onun təşkil etdiyi işgüzar toplantılarda iştirak edirdim. İrəli sürülən ideyaları həyata keçirmək həvəsi bizi hiss etmədən bir-birimizə daha çox bağlayırdı. Çox tez-tez mənə zəng edər, fikirlərini mənimlə bölüşər, mənim də münasibətimi bilmək istəyərdi. Danışarkən arabir eşitdiyim yalnız ona məxsus şirin qəhqəhələr çox ümidverici olurdu. Bir gün yadımdadır, axşamüstü idi. Telefonum zəng çaldı. Nailəxanımın aydın, sakit, amma sirli səsini eşitdim. Salamlaşmadan sonra mənə qəribə bir təklif etdi: “Səni məktəbə aparmaq istəyirəm. Bilirsən də, bizim Dünya məktəbimiz var. Məktəbi yeni binaya köçürürük. Çox istəyirəm, səninlə birlikdə məktəbimizi böyüdək, inkişaf etdirək, arzu etdiyimiz bir məktəb quraq. Etiraz etmə! Səndən cavab gözləyirəm. Birlikdə işləyəcəyik. Səninlə işləmək istəyirəm”.

Təklif çox gözlənilməz oldu. Nə cavab verəcəyimi bilmədim. Məsuliyyəti anlayırdım. İçimdə hər zaman arzuladığım bir məktəb var idi. Nailəxanımın təklifi içimdə gizlənmiş arzuları sanki alovlandırdı. Heç bilmirəm, necə razılıq verdim və Nailəxanımla birlikdə “Yaxşı məktəb” qurmaq arzusu ilə birgə yola çıxdıq.

Beləcə 20 il bu yolda birlikdə çiyin-çiyinə addımladıq. Birlikdə düşünərdik, bölüşərdik, səhvlərimizi müzakirə edərdik. Buraxdığımız hər bir səhv bizə daha düzgün yolu müəyyən etməyə kömək edərdi. Dünya məktəbi böyüyür, böyüyürdü, arzuları gerçəkləşdirən bir təhsil ocağına çevrilirdi. Hər daşı, hər pilləsi bu nəğməni oxuyurdu:

Sözlər:
Hamlet İsaxanlı
Musiqi:
Nailəxanım İsayeva

---

ÜFÜQDƏ QIZARTI VAR,
GECƏ YANDI – YAXILDI,
QIZILI SARI OXLAR
PƏNCƏRƏMƏ TAXILDI.

GÜNƏŞ GÖYDƏ GÖRÜNDÜ,
DÜNYAM NURA BÜRÜNDÜ.
XƏYAL GERÇƏYƏ DÖNDÜ,
GERÇƏK SANKİ NAĞILDI!

TƏBİƏTƏ AŞİQ OL,
OXU, YAZ, YARAT BOL-BOL,
GƏLƏCƏYƏ GEDƏN YOL
DÜŞÜNCƏDİ, AĞILDI!



Uçub gedən məzunlarımızın, valideylərin bizimlə görüşməyə gələrkən minnətdarlıq hissi ilə ürək dolusu söylədikləri təşəkkürlər bizi daha çox çalışmağa, qurduğumuz məktəbi daha da ucalara qaldırmağa həvəsləndirirdi. Nailəxanım, bütün bu uğurlar Sizin misilsiz əməyiniz sayəsində qazanılırdı.

3 aprel 2021-ci il. Ayağımın altından yer qaçdı, qəlbimə axan göz yaşları buludlara çevrilib yer üzünə səpələnməyə başladı. Amansız xəstəlik Sizi bizdən necə ayıra bildi? Günəş də qaçıb gizləndi, sanki Sizi qoruya bilmədiyi üçün xəcalət çəkirdi. Bəs Sizin hələ yarımçıq qalan arzularınız, istəkləriniz necə oldu?!

Nailəxanım, yaş ötdükcə, insan nə qədər müdrikləşsə də, bəzi həqiqətləri çox gec anlaya bilir. Mənim üçün nə qədər dəyərli olduğunuzu sözlə ifadə edə bilmirəm. İndi dərk etdim ki, sanki gözümün önündə hər şey pərən-pərən oldu. Deyirlər, göz yaşları hər bir acını soyuda bilər. Göz yaşlarım belə acımı soyuda bilmir. Hər zaman söylədiyiniz sözlərə necə də sadiq qaldınız: “Mən heç bir yerdə yaşaya bilmərəm. Hara getsəm də, tez evimə qayıtmaq istəyirəm. İnsan gərək Vətənini sevsin!”Siz Vətəni sevdiyiniz kimi, Vətən torpağı da Sizi öz bağrına basdı.

SİZ İNSANLIĞIN ƏN ALİ PİLLƏSİNƏ QALXMAQ NƏSİB OLAN XEYİRXAH BİR MƏLƏK OLDUNUZ.

ƏZİZ NAİLƏXANIM, İNSANLARA BƏXŞ ETDİYİNİZ SEVGİ, MƏRHƏMƏT, YAXŞILIQLAR DÜNYASINDA ÖLMƏZLİYƏ QOVUŞDUNUZ!

SİZ SEVDİNİZ VƏ SEVİLDİNİZ. SEVİLƏNLƏR ÖLMƏZ!!!



TƏK TƏSƏLLİMİZ DÜNYA MƏKTƏBİNİN SEVGİ DOLU PIÇILTISIDIR:
SANMAYIN, GETDİNİZ TƏRK EDİB BİZİ,
UNUTMAZ HEÇ ZAMAN BU “DÜNYA” SİZİ,
YAŞADAR İNSANI ƏMƏLİ, İZİ !



I CANNOT SPEAK, BUT I CAN LISTEN.
I CANNOT BE SEEN, BUT I CAN BE HEARD.
SO AS YOU STAND UPON A SHORE
GAZING AT A BEAUTIFUL SEA,
AS YOU LOOK UPON A FLOWER
AND ADMIRE ITS SIMPLICITY,
REMEMBER ME.

REMEMBER ME IN YOUR HEART:
YOUR THOUGHTS, AND YOUR MEMORIES,
OF THE TIMES WE LOVED,
THE TIMES WE CRIED,
THE TIMES WE FOUGHT,
THE TIMES WE LAUGHED.
FOR IF YOU ALWAYS THINK OF ME,
I WILL NEVER HAVE GONE.

# TRIBUTE TO NAILAKHANYM ISAYEVA!

LOVED ONES WILL NEVER DIE; THEY WILL ALWAYS REMAIN IN THE MEMORIES THEY HAVE CREATED

I write this tribute with great sadness over the unimaginable loss of Nailakhanym Isayeva, a very special person who changed not only mine but many others' lives as well.

I will never forget you. I don't want to either. Along with the great sadness that comes from missing you, I want to share my memories with our school community who loved you and respected as a great person.

I never forget my first meeting with her. Her smiling face indicated her gentle and caring character. I was worried as it was my first visit. She told me not to worry. Everything would be fine. I have heard these consoling words many times when I faced difficulties within these years.



I have so many memories about Nailakhanym as she was inside of the work all the time. She loved the school so much and enjoyed being part of every event happening at school. We always needed her precious advice and our meetings were always fruitful. We loved her love towards us, towards our work. She created such a rich working environment for us that we enjoyed staying for hours at school and work on new projects. We knew she would praise us, appreciate our work because she was a beautiful person from inside and outside. Her teaching experience allowed her to analyze the issues regarding education and she always shared her concerns with us and inspired us to make changes for the development of education.

I remember how hard she was working on her speech for educational conference of the bilingual schools arranged in Russia. After the conference, she was sharing her experience with us and she was so proud of her school.

I remember how she was supporting me when we were facing challenges in the beginning of the implementation of the IB program. Dunya IB School has been founded with her close support and we made it happen together with her. She was a heart person and she appreciated, valued the people who work at school. She was always saying:" "It doesn't matter how good you are at your skill… never lose your humanity."

My heart sighs and tears so much right now but then I find comfort in your words. You left too soon, dear Nailakhanym!

There was so much to learn from you.

Rana Hasanova
Head of IB SchoolDP Coordinator





Çiçək Qaracayeva
Sumqayıt DÜNYA Məktəbinin direktoru

# TƏHSİL SEVGİYLƏ BAŞLAR...

NAİLƏXANIMI PARLAQ GÜNƏŞƏ BƏNZƏDİRƏM.

O GÜNƏŞ Kİ, ÇOX BÖYÜK CAZİBƏ QÜVVƏSİNƏ MALİK İDİ. ONUNLA GÖRÜŞÜB, DANIŞAN İNSAN HƏMİN CAZİBƏNİN SEHRİNƏ DÜŞÜRDÜ.



Nailəxanımla ilk tanışlığım, ilk görüşüm bir valideyn kimi, 2002-ci ilin avqust ayına təsadüf etmişdi. Görüşümüzdən qısa müddət sonra "gəl bizimlə çalış" deyərək, məni DÜNYA Məktəbində işləməyə dəvət etdi. Təklifini məmnuniyyətlə qəbul etdim və həmin ilin sentyabrından DÜNYA Məktəbi ailəsinin bir üzvünə çevrildim.

Nailəxanımı parlaq Günəşə bənzədirəm. O Günəş ki, çox böyük cazibə qüvvəsinə malik idi. Onunla görüşüb, danışan insan həmin cazibənin sehrinə düşürdü. Bəzən baxışları yetərli idi fikirlərini anlatmağa. Harada olmasından asılı olmayaraq, sadəcə varlığı ilə ruhlandırar, hər işin ən yaxşısını görməyə sövq edərdi.

NAİLƏXANIM SEVGİ ÇƏLƏNGİ İDİ. O SEVGİDƏN ƏTRAFINDAKI HƏR KƏSƏ PAY DÜŞÜRDÜ. "TƏHSİL SEVGİYLƏ BAŞLAR" - DEYƏRDİ NAİLƏXANIM.



BU GÜCLÜ, DƏYANƏTLİ, ŞƏFQƏTLİ QADIN ÇIXIŞLARINDA DA SÖYLƏDİYİ KİMİ, HƏR BİR ŞAGİRDİN BÜTÜNLÜKLƏ POTENSİALINI , BACARIĞINI AÇMAQ, ŞÜURLU, FƏAL, YÜKSƏK İNTELLEKTUAL MƏDƏNİYYƏTƏ VƏ DEMOKRATİK ÜMUMBƏŞƏRİ DƏYƏRLƏRƏ MALİK VƏTƏNDAŞ KİMİ YETİŞMƏYİ ÜÇÜN YORULMADAN ÇALIŞIRDI.




Qurub-yaratdığı təhsil ocağında kiçikdən-böyüyə hər kəsi sevər və hamının ürəyində özünə yuva qurardı.

Nailəxanım həyat məktəbi idi. Qəlbi şəvqətlə dolu, fədakar qadın, həyat eşqli, yaşam həvəsli, mərhəmətli, humanist, obyektiv, dəyər verən, böyük şəxsiyyət, əvəzolunmaz rəhbər idi.

Bu güclü, dəyanətli, şəfqətli qadın çıxışlarında da söylədiyi kimi, hər bir şagirdin bütünlüklə potensialını , bacarığını açmaq, şüurlu, fəal, yüksək intellektual mədəniyyətə və demokratik ümumbəşəri dəyərlərə malik vətəndaş kimi yetişməyi üçün yorulmadan çalışırdı.

Nəinki məktəb illərində, hətta məzun olduqdan sonra da daima onlarla maraqlanar, uğurlarına sevinərdi.

O məzunlar bu gün dünyanın hər yerinə səpələnərək təhsil alır, işləyir və Nailə xanımın həyatlarındakı əvəzolunmaz rolundan ürək dolusu danışırlar.

Əziz Nailəxanım, DÜNYA Məktəbi adlanan evinizin, ailənizin bir üzvü kimi adınızı sonsuzadək böyük sevgi və dərin hörmətlə anacaq, yolunuzu əzmlə davam etdirəcək, xatirənizi əbədi yaşadacağıq!

KARYERA HƏYATIMIN ÇİÇƏKLƏNƏN DÖVRÜ ONUN MƏNƏ İŞ TƏKLİF ETDİYİ GÜNDƏN BAŞLADI...

Mehriban Tağıyeva
DÜNYA ANA Məktəbinin direktoru

# RUHUMUN QİDASI, YOL YOLDAŞIM, ƏQİDƏ DOSTUM...

Bu gözəl insanla tanışlığımız qürbətdə - Sloveniyadan başlandı.

Həqiqətən də insanı tanımaq üçün onunla bir dəfə səfərdə olmağın yetərlidir. Nailəxanımı da mən beləcə, çox gözəl və yaxından tanıdım. Demək olar ki, bütün günümüzü bərabər keçirirdik. İlk görüşdən bu xanımın zəngin daxili aləminə, zövqünə valeh olmuşdum. Saatlarla onu dinləmək mənə xüsusi zövq verirdi. Danışığı, kubarlığı, musiqiyə olan sevgisi məni valeh etmişdi. Bu dostluq vətənə qayıtdıqdan sonra da davam etməyə başladı. İnsanları öz dilində danışdıran Nailəxanımdan doymaq olmurdu.





Karyera həyatımın çiçəklənən dövrü onun mənə iş təklif etdiyi gündən başladı. Ondan aldığım enerji ilə hər gün yeniliklər etmək, yaratmaq, qurmaq istəyirdim. Hər bir işdə təbiilik, incəlik görmək istəyən Nailəxanım mənim üçün bir məktəb idi.

Təkcə mənim deyil, ailəmin də əziz insanını itirmək bizi sarsıtdı.

Həqiqətən də gedişilə qəlblərdə dərin bir boşluq yaratdı - Nailəxanım, bizim solmayan İnciçiçəyimiz...

HƏR BİR İŞDƏ TƏBİİLİK, İNCƏLİK GÖRMƏK İSTƏYƏN NAİLƏXANIM MƏNİM ÜÇÜN BİR MƏKTƏB İDİ...

Gülüstan Sadıqova
DÜNYA Məktəbi
İngilis dili müəllimi

# MƏHKUM OLDUQ HƏSRƏTİNƏ

*Dünya boyda qəlbi vardı,*
*"Dünya"ya sevinc saçardı.*
*Uşaqla uşaq olardı*
*Qəlblərə tez yol tapardı.*

* * *

*Hər kəsə örnək sevgisi,*
*Heç bitməyən yaşam eşqi,*
*Dostlarına sadiqliyi,*
*Yardımsevər mələk qəlbi*
*Vardı o gözəl insanın,*
*Bizim Nailəxanımın.*

* * *

*Yaddaşlara həkk olundu,*
*Qəlbimizdə bir iz qoydu,*
*Görməsək də, var oluşu*
*Qəlbimizi ovudurdu.*

* * *

*Bizlər üçün sağsınız,*
*Qəlbimizdə yaşayırsız*
*Ruhunuz göydə olsa da,*
*Ürəklərə həbs olmusuz.*

* * *

*Gül  çiçəyin, musiqinin,*
*Aşiqi cənnət mələyi,*
*Uçub getdi cənnətinə*
*Məhkum olduq həsrətinə.*



# NƏYƏ TOXUNURDUSA, ORADA GÖZƏLLİK YARADIRDI...





Ramiz Həsənoğlu

Əməkdar İncəsənət Xadimi,
Azərbaycanın Xalq Artisti,
tanınmış teatr, kino
və televiziya rejissoru

Nailəxanım haqqında düşünəndə məni fikirlərim 20 il, bəlkə də, daha çox illər öncəyə aparır. Ailəvi gediş-gəlimiz vardı. Mənim həyat yoldaşımla Nailəxanım yaxın dost olublar.

Bizim Hamlet müəllim və Nailəxanımla münasibətlərimiz, dostluğumuz illərə söykənir. Hər zaman yaradıcılıq tədbirlərində, müxtəlif simpoziumlarda, konfranslarda bərabər olmuşuq. Mən XƏZƏR Universiteti və DÜNYA Məktəbinin tez-tez qonağı olmuşam.

Nailəxanımın yaradıcılığının ilk addımlarının, yaradıcılıq sevincinin şahidiyəm. Sonradan onların bağında ilk mahnılarından birinə klip çəkilərkən, mən də orada iştirak edirdim.

Nailəxanımın gözəl zövqü vardı, nəyə toxunurdusa, orada gözəllik yaradırdı. Bağçada, mətbəxdə, evinin içində...

Ən kiçik nəvəsi Cananla çox təmasda olurdu. Onu istədiyi kimi böyüdürdü.

Nailəxanımın həyatının bir günü var ki, o günü xüsusi olaraq xatırlayıram. DÜNYA Məktəbində yubileyi qeyd olunurdu. Bilirsiniz ki, tale elə gətirib ki, onların dörd qız övladlarının dördü də valideynlərdən uzaqlarda, xarici ölkələrdə yaşayırlar. Tez-tez görüşə bilmirlər.





Yubiley gecəsində Hamlet müəllim qızlarını ona sürpriz etdi. Pərdələr açılanda və qızlar qəfil səhnədə görünəndə, mən səhnəyə deyil, Nailəxanıma baxırdım. Düşünürdüm ki, o, bu qədər emosiyanı ürəyinə necə yerləşdirə bilir?!

Hamletin bəxti gətirmişdi...

İdeal insan, ideal qadın idi. Çexovun məşhur ifadəsi var ki, insanda hər şey gözəl olmalıdır. Sözün əsl mənasında, Nailəxanım hər mənada gözəl və böyük insan idi. Azərbaycan qadınının başını uca edən iftixarlı xanım idi...

# ÇOX SÖZÜN AZ HİSSƏSİ...

Afaq Kərimova

Tanınmış xalçaçı rəssam
Azərbaycan Rəssamlar İttifaqının üzvü
XƏZƏR Universitetinin Tətbiqi Sənət Muzeyinin direktoru

BAŞDAN-AYAĞA YARADICILIQ
OVQATI İLƏ KÖKLƏNMİŞ
NAİLƏXANIMIN BƏLKƏ DƏ
ÖMÜR BOYU HAMLET
MÜƏLLİMLƏ YANAŞI
ADDIMLAMASI ONUN
QURUB-YARATMAQ HƏVƏSİNİ
ÇOX COŞQULU ETMİŞDİ Kİ,
BU DA ONDA ƏN ÇOX SEVDİYİM
CƏHƏTLƏRDƏN BİRİ İDİ.

Nailəxanım haqqında keçmiş zamanda danışmaq olmur. Çünki O, istənilən sevinci ani bölüşmək üçün tez yada düşən insanlardan biridir.

Dostluq münasibətlərimizə görə bizi 25 il öncə tanış etmiş həmkarım, tanınmış rəssam Rafiq Mirəbdülrəhimova çox minnətdaram.

O illər Nailəxanım sevimli həyat yoldaşı, görkəmli ziyalımız, professor Hamlet İsaxanlıdan məxfi, 50 illik yubileyi münasibətilə mənə onun portret - xalçasını sifariş verdi. O zaman O,




"Nizami Gəncəvi" adına Ədəbiyyat muzeyində iş otağımda toxunan portret – xalçaya tez-tez baş çəkir, hər gələndə az qala hər ilmə, hər detalla bir-bir maraqlanır, suallar verirdi. Sanki imkan olsaydı, özü toxuyardı sevə-sevə gözlədiyi xalçanı.

Başdan-ayağa yaradıcılıq ovqatı ilə köklənmiş Nailəxanımın bəlkə də ömür boyu Hamlet müəllimlə yanaşı addımlaması onun qurub-yaratmaq həvəsini çox coşqulu etmişdi ki, bu da

Onda ən çox sevdiyim cəhətlərdən biri idi.

Beş-on il qabaq xaricə, yaradıcılıq ezamiyyətinə birgə gedərkən narazı səslə (təyyarəyə əyləşməmiş) söyləməyə başladı ki, heç soyuqdəymədən sağalmamışam, bilmirəm necə olacaq, niyə göndərirlər bizi ora və s.

Təyyarə tərpənəndən üç dəqiqə keçməmiş bir-birini əvəz edən ən gözəl mahnıları ikimizin eşidə bildiyi səslə bütün yol boyu oxumaqdan doymurdu. Səhərlər zavod-fabrikdə layihəmizin uğurlu nəticəsi üçün əlindən gələni edir, axşamlar isə Çinin çox əlvan koloritli mənzərələrinə bizim unudulmaz melodiyalarımızı qatır, azana qədər



gəzməkdən "yarıcan" olsaq da, hər gecə ünvanımıza toydan gələnlər kimi qayıdırdıq.

Fikrimdə isə səfərin hər günü müasir dövrün çox fədakar, nağməkar, yaradıcı qadın obrazı formalaşırdı.

Sənətdə yaratdığım tarixi qadın obrazlarının hər biri bir muzeyin eksponatı olsa da, "BƏSTƏKAR NAİLƏXANIM" batik əsərim Hamlet müəllimin evinin muzeyə bənzər guşəsindən asılıb ki, haqqında deyə biləcəyim çox sözün az bir hissəsidir.

# DÜNYA Məktəbi Nailəxanımdan qalan irsdir...

Ülkər Qaracalı
DÜNYA Məktəbinin məzunu – 2009

... ELƏ İNSANLAR VAR Kİ, ONLARIN ƏHATƏSİNDƏ HƏMİŞƏ GÜVƏNDƏ HİSS EDİRSƏN, GƏLƏCƏYƏ İNAMLI BAXIRSAN. O, MƏHZ BELƏ İNSAN İDİ, HƏR GÖRÜŞÜMÜZDƏN SONRA HƏR ŞEYİN YAXŞI OLACAĞINA İNAMIMIZ ARTARDI.



Nailəxanımı ilk gördüyüm günü xatırlayıram. XƏZƏR Universitetinin binasının dəhlizlərində qaçışdığım, birinci sinif şagirdi olduğum günlərə təsadüf edir onunla bağlı ilk xatirəm. O zaman tanımasam da, mehriban çöhrəsi hafizəmə aydın həkk olunmuşdu. Onu daha yaxından tanıdıqca adı musiqiləri, söhbətləri ilə fikirlərimə calanırdı. Mən Nailəxanımı təbəssümsüz xatırlamıram. Elə insanlar var ki, onların əhatəsində həmişə güvəndə hiss edirsən, gələcəyə inamlı baxırsan. O məhz belə insan idi, hər görüşümüzdən sonra uğurlu gələcəyə inamınız artardı. Məhz belə insanlar təkcə sağlıqlarında deyil, özlərindən sonra da yaşatmağa, inkişaf etdirməyə qadir irs qoyub gedə bilirlər.

DÜNYA Məktəbi Nailəxanımdan qalan irsin parçasıdır.

Adınız, musiqiləriniz ürəklərimizdə əbədi yaşayacaq, Nailəxanım!





# İNCİÇİÇƏYİ

Söz: Hamlet İsaxanlı
Musiqi: Nailəxanım İsayeva

Sən gözələ gözüm düşüb,
Elin elimdən,
Dilin dilimdən.
Fələk elçi düşsə belə
Vermərəm əlimdən.
Naz eyləsən, əl ataram
Hər fəndi felə,
Əlləşmə göylə,
Eşqimə aç qucağını,
Şükürlər eylə.
Sənsiz gülşənim puç olar,
Duy bu gerçəyi,
Çöllər göyçəyi.
Sən məni məst eyləyibsən,
İnciçiçəyi.

# Sən gözələ gözüm düşüb...

Nailəxanımla tanışlığımız onu öz həyat yoldaşı professor Hamlet İsaxanlının sözlərinə bəstələdiyi "Sən gözələ gözüm düşüb" mahnısı ilə başlamışdı. İlk növbədə məni mahnının sözləri, musiqinin geniş diapazonda melodik cəhətdən çox zəngin olması heyrətə gətirmişdi, həm də Nailəxanımın özünün intellektual səviyyəsi, onun çox gözəl, ziyalı Azərbaycan xanımı olması böyük simpatiya yaratmışdı.



Onların ailəsi ilə sonradan bizim dostluğumuz davam etdi.
Onlar yalnız yaradıcılıqda deyil, həyatda da ömür-gün yoldaşı kimi vəhdət təşkil edirdilər.
Həm musiqidə, həm ailə həyatında örnək, nümunə olacaq ailədirlər.

Hamlet müəllim və Nailəxanım çox gənclərə əl tutublar, arxa, dəstək olublar. Nə qədər cavana həyata vəsiqə veriblər.



MƏN DEYİM Kİ,
ONLAR YALNIZ
YARADICILIQDA DEYİL,
HƏYATDA DA ÖMÜR- GÜN
YOLDAŞI KİMİ VƏHDƏT
TƏŞKİL EDİRDİLƏR.

HAMLET MÜƏLLİM
VƏ NAİLƏXANIM ÇOX
GƏNCLƏRƏ ƏL TUTUBLAR,
ARXA, DƏSTƏK OLUBLAR.
NƏ QƏDƏR CAVANA
HƏYATA VƏSİQƏ VERİBLƏR.

**Brilliant Dadaşova**
Azərbaycan Respublikasının
Xalq Artisti

**TANIŞLIQ**…

Onu ilk dəfə DÜNYA Məktəbinə valideyn kimi tanışlıq məqsədilə gələndə gördüm. Sözün əsil mənasında ziya saçan, son dərəcə pozitiv ruhlu, çöhrəsindən xeyirxahlıq, nur yağan bu xanım bizdə elə xoş təəssürat yaratdı ki, məktəb seçmək

**NAİLƏXANIM MƏKTƏBİN FƏLSƏFƏSİNİ BİLƏN, TƏHSİLİ, YENİLİYİ SEVƏN HƏMFİKİRLƏRİNİ PEŞƏKARCASINA YETİŞDİRƏRƏK, HƏMKARLARINA ÇEVİRƏ BİLİRDİ... O, MƏKTƏBİMİZİN ƏMƏKDAŞLARINA "BİZ BİR AİLƏYİK" DEMƏKDƏN YORULMAZDI...**



# "DÜNYA"NIN BİR İNCİSİ…

**NAİLƏXANIM İLK DƏFƏ MƏKTƏBİ ADI TƏHSİL MÜƏSSİSƏSİ STATUSUNDAN ÇIXARIB, AİLƏLƏRƏ YAXIN, SEVİMLİ, NÜFUZLU, MARAQLI, DOGMA BİR OCAĞA ÇEVİRƏ BİLMİŞDİ...**



istəyimizi gerçəkləşdirdik. Övladlarımızı onun "Dünya"sına etibar etdik. Bununla da, bizim valideyn kimi məktəblə və bu unikal təhsil ocağının qurucusu Nailəxanımla ünsiyyətimiz başladı...

O, valideynlərin hər biri ilə şəxsən tanış idi... Onu şagirdlər kimi, bütün valideynlər də çox sevirdilər. Bu böyük sevgini qazanmağın sirri nədə idi?! Yəqin ki, səmimiyyət...

Son dərəcə enerjili, çalışmaqdan, qurub-yaratmaqdan doymayan bu xanımın üzündən təbəssümün əskik olduğunu heç görmədim… Çalışırdı ki, valideynlər də məktəbin tədbirlərində, layihələrində fəal iştirak etsinlər. Məktəb-şagird-valideyn əlaqələrinnin yüksək səviyyədə

**NAİLƏXANIMLA ÇALIŞMAQ, ONDAN ÖYRƏNMƏK, ONUN YENİ MODEL TƏHSİLƏ, TƏLİM-TƏRBİYƏYƏ DAİR GÖSTƏRİŞLƏRİNİ, FİKİRLƏRİNİ, PLANLARINI EŞİTMƏK VƏ BU PROSESDƏ İŞTİRAK ETMƏK ÇOX İFTİXARLI İDİ…**




qurulmasına çox üstünlük verirdi. Sonradan öyrəndik ki, DÜNYA Məktəbinin elə əsas fəlsəfələrindən biri də budur. Nailəxanım ilk dəfə məktəbi adi təhsil müəssisəsi statusundan çıxarıb ailələrə yaxın, sevimli, nüfuzlu, maraqlı, dogma bir ocağa çevirə bilmişdi. DÜNYA Məktəbi şagirdin də müəllimin də, valideynin də ikinci evi idi. Buna görədir ki, məktəbə daxil olanda qəribə rahatlıq, istilik, pozitiv əhval-ruhiyyə insana hakim kəsiir… Məktəbin bütün binalarında, otaqlarında Nailəxanımın yanaşmasının, düzəninin, səliqə-səhmanının izləri var… Özümüz də hiss etmədən artıq valideyn kimi məktəbin bütün ictimai, bədii tədbirlərinin fəal iştirakçısı idik… Övladlarımızın təhsil uğurları ilə yanaşı onların bədii zövqünün formalaşması, özünə inam hissinin möhkəmlənməsi, şəxsiyyət kimi yetişməsi bizə sonsuz sevinc bəxş edirdi… Hər iki övladımızın ölkəmizdən kənarda, universitetlərə qəbul olunmasında məktəbin və onun rəhbəri Nailəxanımın əməyi danılmazdır.

**TƏKLİF…**

Məktəbin iştirak etdiyimiz tədbirlərinin birində Nailəxanım həyat yoldaşıma müraciətlə "niyə xanımınızı bizimlə işləməyə qoymursunuz?!" deyə soruşdu. Ardınca da cavabı gözləmədən "mən istərdim ki, bundan sonra xanımınız məktəbimizə təkcə valideyn olaraq yox, müəllimə kimi gəlsin… Beləcə Nailəxanımın xeyir-duası ilə pedaqoji fəaliyyətimi DÜNYA Məktəbində davam etdirməyə başladım. . Nailəxanım məktəbin fəlsəfəsini bilən, təhsili, yeniliyi sevən həmfikirlərini peşəkarcasına yetişdirərək həmkarlarına çevirə bilirdi... O, məktəbimizin əməkdaşlarına "biz bir ailəyik" deməkdən yorulmazdı. Məktəbin kollektivi üçün əlamətdar günlərdə keçirilən bütün şənliklərə qatılar, bizimlə birlikdə rəqs edər, piano çalıb-oxuyardı… Nailəxanımla çalışmaq, ondan öyrənmək, onun yeni model təhsilə, təlim-tərbiyəyə dair göstərişlərini, fikirlərini, planlarını eşitmək və bu prosesdə iştirak etmək çox qürurverici idi…

Günlərin birində məni yanına çağırdı.

**NAİLƏXANIM BACARIQLI RƏHBƏR, GÖRKƏMLİ TƏHSİL EKSPERTİ, UĞURLU TƏŞKİLATÇI OLMAQLA BƏRABƏR, HƏM DƏ İNCƏ QƏLBLİ İNSAN, İSTEDADLI, YARADICI ŞƏXSİYYƏT İDİ.**

Həyəcanla otağına daxil olanda gülərüz çöhrəsini görüb rahatlaşdım. "Bir həftədir ki, direktor müavini vəzifəsinə namizədləri gözdən keçirirəm. Amma, kimin haqqında düşünsəm də, sənin üzərində dayanıram". . "Bacararammı"? - deyə soruşduqda, "əlbəttə, bacaracaqsan" – dedi. Həmin hadisənin üzərindən illər keçsə də, bu etimadın məsuliyyətini hər gün, hər an hiss etməkdəyəm. İş yoldaşlarım kimi mən də Nailəxanımın "DÜNYA"sında çalışmağın iftixarını yaşayıram.

**ONUN ÖZ "DÜNYA"SI …**

Bu gün DÜNYA Məktəbinin şagirdləri Onun yaratdığı, qurduğu, inkişaf etdirdiyi təhsil sisteminin sayəsində uğurlu nəticələr əldə edir, cəmiyyətimiz üçün yetkin vətəndaş kimi formalaşırlar. Dünyanın bir çox ölkələrinə isə Onun "Dünya"sının kiçik parçaları-



məzunlarımız səpələniblər. Bu məzunlar daim məktəblə əlaqədədirlər. Çoxu xarici ölkələrdə, dünyanın ən nüfuzlu universitetlərdə təhsil alaraq, yüksək səviyyəli gənc mütəxəssis kimi Azərbaycana qayıdıb, bəziləri isə, fəaliyyətlərini ölkəmizdən kənarda davam etdirirlər. Onların hər bir uğurunda Nailəxanımın rolu danılmazdır. O, bu gənclərlə fəxr edir, onlar barədə hər xoş xəbərə doğma ana kimi sevinirdi.

Nailəxanım bacarıqlı rəhbər, görkəmli təhsil eksperti, uğurlu təşkilatçı olmaqla bərabər, həm də, incə qəlbli insan, istedadlı, yaradıcı şəxsiyyət idi. Məktəbin bütün bədii tədbirlərinin hazırlanmasında yaxından iştirak edirdi. Yüksək zövq sahibiydi. Tədbirlərimizə daim tanınmış ziyalıları, incəsənət nümayəndələrini dəvət edərdi. Bu da məktəbin mühitinə elm, yaradıcılıq, sənət ab-havası gətirirdi. Onun mənəvi qidası musiqiydi… Nailəxanım gözəl bəstəkar idi. Ömür-gün yoldaşı, Xəzər Universiteti və Dünya məktəbinin

## ONUN MƏNƏVİ QİDASI MUSİQİYDİ… NAİLƏXANIM GÖZƏL BƏSTƏKAR İDİ...

qurucusu, professor Hamlet İsaxanlının sözlərinə yazdığı mahnılar tanınmış müğənnilər tərəfindən sevilə-sevilə ifa olunur… Bu mahnılar iki sevən qəlbin birgə döyüntüsündən yaranmış əbədi məhəbbət nağmələridir. DÜNYA Məktəbinə həsr olunmuş bəstə isə neçə-neçə məzunun dillər əzbəridir, onlarla qürur duyardı

Nailəxanım iradəli, nikbin, həyatsevər insan idi. Uzun illər böyük dözüm göstərərək ağır xəstəliklə mübarizə apara bildi. Bu müddət ərzində fəaliyyətini dayandırmadı, sevimli və gərəkli işindən ayrılmadı. Məktəbini genişləndirdi, inkişaf etdirdi.

Əlvan rəngləri, baharı, çiçəkləri çox sevirdi… İnciçiçəyinin vurğunu idi. Doğma insanımızı, sevimli rəhbərimizi və həssas qəlbli dostumuzu itirdik. Deyirlər, insanların ikinci həyatı onların dünyaya əbədi göz yumduğu andan başlayır. İkinci həyatını insan ürəklərdə, xatirələrdə, əməllərdə yaşayır. Bizim Nailəxanım kimi…

Minlərlə şagirdin, məzunun, müəllimlərin , valideynlərin və sevənlərinin qəlbində taxt qurmuş Nailəxanım İsayeva!



Aləmzər Cabbarova

DÜNYA Məktəbinin
Azərbaycan bölməsi üzrə
direktor müavini



Hardan başlayım, deyə günlərdir düşünürəm...

İlk gördüyüm gündən başlasammı?! Tanımamışdım onda, o qədər sadə geyinmiş və o qədər sadə davranırdı ki, onun da mənim kimi işə qəbul üçün gəldiyini düşünmüşdüm. Hardan biləydim ki, bu xanım sonralar həyatıma elə toxunuşlar edəcək ki... Özümü həyatda yerbəyer edəndə mənim yanımda olacaq və yaşadığım həyatı onun yanında bir də təkrardan öyrənməyə başlayacağam...

Məktəb onun üçün bir məbəd idi. Onun doğma evi, ocağı idi. Hər səhər işə gələndə özü ilə xoş ovqat gətirər və bunu hər kəslə paylaşardı. Hamı sevincli olsun, xoşbəxt olsun istərdi. Çox maraqlı həmsöhbət idi. Yüksək insani hissləri vardı, obyektiv və düzgün adam idi. Ən çətin məqamlarda tez çıxış yolu tapa bilirdi, deyə iş otağına tez-tez üz tutardım...

# MƏKTƏB ONUN ÜÇÜN MƏBƏD İDİ...

MƏNALI HƏYAT YAŞADI,
QURDUĞU, HƏYAT VERDİYİ
HƏR ŞEY İNSANLARA XİDMƏT ETDİ,
CƏMİYYƏTƏ YARARLI OLDU.
XOŞBƏXT İNSANDIR, ÇÜNKİ
ELƏ BİR İZ QOYDU Kİ,
HƏLƏ NEÇƏ NƏSİL
O İZLƏ İRƏLİLƏYƏ BİLƏCƏK!

Ağrılarına gülərək əl sallayardı bəzən, qoymurdu ağrı ona qalib gəlsin. Yaşadığı ömürdən mənalı işlərə daha çox pay ayırırdı, başladığı işləri sona çatdırmaq istəyirdi. Elə bil bu dünyaya qurub-yaratmaq üçün gəlmişdi, missiyasını son günə qədər yerinə yetirmək borcu vardı..

Mənalı həyat yaşadı, qurduğu, həyat verdiyi hər şey insanlara xidmət etdi, cəmiyyətə yararlı oldu. Xoşbəxt insandır, çünki elə bir iz qoydu ki, hələ neçə nəsil o izlə irəliləyə biləcək!

Mən isə, illər keçsə də Nailəxanımın nə adını, nə də özünü unuda biləcəyəm. Onunla bağlı o qədər xatirələrim var ki... Bəlkə də bir gün onları bir yerə toplayaram. O gün gələnə kimi isə...

Hər şey yaddaşımdadır, mənimlə birgə yaşayacaq.



Mədinə Karahan
DÜNYA Məktəbinin
kitabxana müdiri



ЛЕЙЛА,
Я ХОЧУ ЧТО- ТО НЕОБЫЧНОЕ, НЕ ИЗБИТОЕ, ЧТО-ТО ВРОДЕ КАПУСТНИКА...

# ЖДУ ОТ ВАС ИДЕЙ!

Для чего мы рождаемся?

Каждый человек одинаково необходим в нашем мире. Кому-то предначертано быть великим ученым или политиком и менять наш мир к лучшему. Кто-то становится многодетными родителями, воспитателями или учителями и в семье, и в школе, оставляя после себя наследие в виде огромного количества прекрасных людей. Они могут воспитать четверых замечательных дочерей, дать им блестящее образование и гордиться ими впоследствии!

Люди живут для того, чтобы на Земле было как можно больше добра. В поисках своего истинного предназначения каждый стремится сделать что-то хорошее, хоть немного улучшить мир вокруг себя.



НИКТО НЕ ПРИХОДИТ В ЭТОТ МИР НАПРАСНО. У КАЖДОГО СВОЕ УНИКАЛЬНОЕ ПРЕДНАЗНАЧЕНИЕ.

**ДЛЯ МЕНЯ СТАЛО ЯСНО ОДНО: ЗДЕСЬ, В ЭТОЙ ШКОЛЕ, Я СМОГУ ПОЛНОСТЬЮ НАЙТИ СЕБЯ И РАСКРЫТЬСЯ КАК УЧИТЕЛЬ РУССКОГО ЯЗЫКА, СМОГУ ОТДАТЬ ДЕТЯМ СВОЮ ЛЮБОВЬ, ВСЮ, БЕЗ ОСТАТКА. ТАК ОНО И ПРОИЗОШЛО...**



Таким человеком была и останется в моей памяти Наиля ханум.

Я познакомилась с ней давно...

Это был теплый октябрьский день.

Наиля ханум пригласила меня как филолога сотрудничать. Войдя в просторный двор школы, я была поражена: передо мной возвышался огромный учебный корпус. Сразу почувствовалось, что это здание возводилось для детей с большой любовью и теплотой, какая только может исходить от добрых, любящих свою работу и профессию людей.

Была перемена... И можно было разглядеть счастливые лица ребятишек, их горящие глаза, услышать бурные беседы и понять, что ты попал в самый настоящий учебный очаг, где царит любовь, добро и понимание своего дела!

Робко постучавшись в кабинет, я открыла дверь. Меня пригласила войти красивая, ухоженная женщина, от которой исходила какая-то невероятная сила и энергия, вызывающая притягательность и интерес к ней.

Диалог завязался сразу, без напыщенных фраз, и я почувствовала, насколько искренним и простым может быть человек, каким бы не был его социальный статус в обществе. Редко я встречала таких людей по жизни.



Для меня стало ясно одно: здесь, в этой школе, я смогу полностью найти себя и раскрыться как учитель русского языка, смогу отдать детям свою любовь, всю, без остатка. Так оно и произошло...

Наиля ханум смогла создать атмосферу доверия и простоты во всем коллективе.

К ней всегда можно было зайти за дельным советом, она никогда не говорила «нет», если ты пришел с какой-то новой идеей.

Кроме чёткого учебного процесса в школе большое внимание уделяется творческому развитию детей.

«Ведь они должны быть гармоничными личностями! Мы готовим граждан мира!» - часто повторяла Наиля ханум.

Музыка, любовь к творчеству, чувство эстетики- вот духовные составляющие её сердца!

Накануне двадцатилетнего юбилея школы мне позвонила Наиля ханум и сказала, что очень хочет видеть на сцене выступление учителей русского сектора:

«Лейла, я хочу что- то необычное, не избитое, что-то вроде капустника...

Жду от вас идей!»

Мы готовились к юбилейному концерту школы...

Репетировали после уроков, пели, рождали в спорах новые идеи, и обращались за творческой помощью к Наиле ханум...

Да,да к ней! А кто ещё смог бы так умело направить нас в таких делах!

И каков был наш восторг, когда после концерта Наиля ханум подошла со словами: «Этого я и ждала. Спасибо!»

То доверие, которое я получила от Наили ханум с первых дней работы в школе, я старалась сохранить и буду нести его по жизни всегда, как бы ни сложилась дальнейшая судьба...



ВЕДЬ ОНИ ДОЛЖНЫ БЫТЬ ГАРМОНИЧНЫМИ ЛИЧНОСТЯМИ !
МЫ ГОТОВИМ ГРАЖДАН МИРА !
- ЧАСТО ПОВТОРЯЛА НАИЛЯХАНУМ

**Лейла Джебраилова**
Координатор русского сектора, педагог русского языка и литературы

# *Nailəxanıma...*

*O qədər təmizdin, o qədər ülvi,*
*Bəlkə də mələkdin dünya üzündə.*
*Bütün dərdlilərə bir məlhəm kimi*
*Məhəbbət, sədaqət vardı qəlbində.*

*Təmizlik gözündə əlifba kimi,*
*Yaxşını yamandan seçə bilirdin.*
*Bir yaxşı səsini ucaltsa əgər,*
*Yamanlar kölgə tək yox olur, itir.*

*Tükənməz məhəbbət uydu qəlbində,*
*Yaxşılar hər dərdə hər qəmə dözür.*
*Yaxşılar dünyadan köç edəndə də*
*Hər yerdə həmişə yeri görünür.*

*Sən mənim gözümdə dözüm, dəyanət,*
*Bu boyda məhəbbət bir qəlbə sığdı.*
*Sənin ürəyindən təmizlik, ülfət*
*Yaz yağışı kimi üstümə yağdı.*

*O qədər təmizdin,o qədər ülvi,*
*Bəlkə də mələkdin dünya üzündə.*
*Bütün dərdlilərə bir məlhəm kimi*
*Mərhəmətlə şəfqət vardı qəlbində.*

**Münəvvər Bayramlı**
DÜNYA Məktəbinin sosial və
əmək fəaliyyətinin təşkili,
intizamına nəzarət koordinatoru

# "Xəzər"lərə, "Dünya"lara Sığmayan...




"

Siz çox dəyərli Hamlet İsaxanlı ilə birlikdə Azərbaycan cəmiyyəti üçün əvəzolunmaz və tarix səhifəsinə keçəcək xidmətin başlanğıcını qoymusunuz. Azərbaycan gəncliyinin şüurlu, fəal və demokratik vətəndaş kimi yetişməsi üçün məktəbəqədər təhsildən başlayaraq, ən yüksək pilləyə qədər cəmiyyətin öyrənmə və öyrətmə ehtiyacına cavab verən elm, bilik ocaqları yaratmısınız. Onları ümumbəşəri dəyərlərlə, proqramlarla əhatə edərək, Azərbaycan təhsilini beynəlxalq aləmlə rəqabət edə biləcək səviyyəyə yüksəltmisiniz.



4 Aprel 2021-ci il tarixi həm Xəzər Universiteti, həm DÜNYA Məktəbi kollektivi, həm də İsayevler ailəsi üçün çox dəyərli bir insanın ağır xəbəri ilə açıldı. Hamımızın böyüyü, əzizi Nailəxanımı itirmişdik. Pandemiya səbəbi ilə böyük Xəzər Universiteti və DÜNYA Məktəbi ailəsinin sadəcə çox az bir hissəsi acısını, qüssə və kədər dolu baxışlarıyla bir- biriləriylə paylaşırdı.

Üzlərdə hər zaman təbəssüm və sevgi dolu baxışlar yaradan zərif, nazənin Nailəxanım, bu dəfə istəmədən sevənlərinin gözündə çarəsizlik və iztiraba dönmüşdü.

Həmişə çal-çağırlı, kövrək müsiqi sədalarının eşidilməsinə alışdığımız o sevgi dolu isti ocaq yaz günündə buzlu, şaxtalı qışa dönmüşdü. Qəlbimizdəki acının şiddəti bizi üşüdürdü.



Hər kəs Nailəxanımlı günlərinin xatirəsinə qərq olmuşdu.

Məşum xəstəliyin ən ağrılı, acılı günündə belə yüksək iradə, mətanət və dözüm sərgiləyərək, zərif bəstələrinin təranələri altında bu ağrıları kimsəyə bəlli etmədən yaşayan, hamıda yüksək əhval-ruhiyyə yaradan, qonaqsevər bir Nailəxanıma alışdırmışdı axı O, sevənlərini.

Rita xanımın telefonundan yüksələn pianino sədası və Nailəxanımin həzin səsi bir anda otağa yayılanda hamı kimi mənim də gözümün önündə başqa bir mənzərə yarandı, xəyalım bu otaqda, bu bağda yaşanmış maraqlı, yadda qalan günlərə, xatirələrə qanad açdı. Ən son avqust ayında gül-çiçəyin ətri bürümüş balkonda oturub samovar çayı içərkən tək-tək bütün bəstələrinin necə yarandığını anladaraq o mahnıları oxumağınızı, xatirələrinizi bölüşməyinizi, sanki vida edirmişsiniz kimi söhbətinizi xatırlayıram təkrar. Yenə o sözlü, şeirli, müsiqili söhbətlərin birində Hamlet müəllimə səslənərək "Hamlet, "Qonşu qızı" mahnısı varmı? Sən də bir "Qonşu qızı" şeiri yaz, ona musiqi bəstələyim Elza üçün" deməyiniz, mənə göstərdiyiniz sevginiz sel olub tökülür göz yaşlarımla...

Hər işdən gələndə pəncərədə yanan işığınızı görüb, "Nailəxanım yaxşıdır, evdədir, min bir ağrıya rəğmən həyat doludur" düşüncəsiylə rahatladardım özümü.

Bu bağ, bu həyət, bu otaqlar, divarlar neçə-neçə sevgi dolu söhbətlərə, şair məclislərinə, qonaqlıqlara, Nailəxanımın ad günlərinə təsadüf edən simpoziumların qapanış gecələrinə, yeni quruculuq işlərinə, yazıb-yaratma arzularına, planlarına şahiddirlər."Bura mənim dünyamdır" dediyi hər bir yerdə - evdə, bağda, Xəzər Universitetində, DÜNYA Məktəbində yaradılan, qurulan hər bir işdə izi, nəvazişi, qayğısı olan Nailəxanımı göz yaşları içində və kutsal azan sədası altında son yolçuluğuna uğurlarkən gözüm bir anda yayda həvəslə tikilmə hekayəsinə şahid olduğum "Nailəxanım Bulağı"na dəydi.



Bir an məlahətli səsi qulağımda çınladı: "Elza, bilirsənmi bu bulağın adı nədir? Adını "Nailəxanım Bulağı" qoymuşam, məndən xatirə qalsın" dediyini xatırladım.

Göz yaşlarımın acısından yanan gözlərimi "Nailəxanım Bulağı"nın sərin suyu ilə yuyarkən qəlbimə də bir sərinlik yayıldı sanki. Fikirləşdim ki, uzaqgörən, müdrik Nailəxanım son görüşümüzdə dediyi kimi "işlərini planlaşdırıb, hər şeyi sahmana salıb".

İlk dəfə Nailəxanımla vidalaşmadan bağdan ayrıldım, çünki bu dəfə o bizə sonsuza qədər vida edib getmişdi...

Şüvəlan - Bakı yolunu qəlbimi yandıran acıyla Nailəxanımın ruhuna dua edərək həmişəki kimi onunla söhbətləşir və əziz xatirəsinə səslənirdim: \

Əziz Nailəxanım,

Siz Xəzər Universiteti və DÜNYA Məktəbi ailəsi üçün çox doğma və dəyərlisiniz! Siz daima öz alicənablığınız, sadəliyiniz, təmkinli və obyektiv münasibətinizlə bütün kollektivimizin həqiqi sevgisini və dərin hörmətini qazanmısınız.

Xəzər Universitetinin 30 illik keşməkeşlı tarix kitabının hər səhifəsində, hər sətrində Sizin çox böyük əməyiniz və inkaredilməz rolunuz var.

Bütün ölkəmiz üçün ağır və sancılı bir dönəm olan 90-cı illərdə təşəkkül etməyə çalışan Xəzər Universiteti yenicə ilk addımlarını atan körpə kimi daima Sizin isti nəfəsiniz və qayğınız, mehriban ana şəfqətiniz, səbrli və mətanətli həyat yoldaşı əzminizlə ildən-ilə böyümüş və uğur qazanmışdır. Nə qədər böyüsək də, kadrolarımız genişləsə də, nəsillər nəsilləri əvəz etsə də, Sizin təməlini qoyduğunuz mehriban, səmimi kollektiv, birlikdə uğurlara nail olan komanda ruhu "Xəzər ailəsi"ndə gedərək möhkəmlənmiş və əvəzolunmaz dəyərlərə



çevrilmişdir. Siz, eyni zamanda öz yaradıcılığınız və istedadınızla, zərif musiqi sədalarınızla daima ruhumuzu oxşamış, bizi şövqləndirmış, estetik zövqümüzü zənginləşdirmisiniz.

Əziz Nailəxanım,

Siz, ömrünüzün ən gözəl illərini "Xəzər ailəsi"nə, DÜNYA Məktəbinə həsr etmisiniz.

Bu böyük kollektiv sizin arzuladığınız, görmək istədiyiniz kimi fəaliyyətini davam etdirəcək və Sizin əziz adınızı sonsuza qədər dərin sevgi və ehtiramla anacaq.

**Elza Səmədli**

Fil. ü. fel. dok., dos.,
Xəzər Universiteti, Humanitar,Təhsil və
Sosial Elmlər Fakültəsinin Dekanı

Həyatımda Nailəxanımla bağlı çox gözəl xatirələrim var. Bizim iş birliyimiz olub, onun "SADƏCƏ ÇOX SEVDİM SƏNİ" ilk mahnısı ilə əlaqədar çox hörmətli bəstəkar Siyavuş Kəriminin studiyasında Hamlet müəllim və Nailəxanımla görüşüb tanış olduq. Hətta çox yaxşı yadımdadır ki, o görüşdə Nadir Axundov və onun həyat yoldaşı Yeganə xanım da iştirak edirdilər.



İlqar Muradov
Azərbaycan müğənnisi,
Azərbaycan Respublikasının Xalq Artisti

Mahnı çox sevildi, dillər əzbəri olan bu mahnını mən də sevərək dəfələrlə ifa etmişəm. Sözləri Hamlet müəllimin, musiqisi Nailəxanımındır. Sonralar onların "Gözəldir" və daha neçə mahnılarını oxudum.

Həyat da elə gətirdi ki, mənim kiçik övladım Əvəz orta məktəbə gedəndə DÜNYA Məktəbinə, Nailəxanıma müraciət etdim. Mənim xahişimi qəbul etdi və o zamandan biz DÜNYA Məktəbinin ailəsinə daxil olduq.

SƏNİ SEVDİM GÜNDƏN-GÜNƏ DAHA DOLĞUN, DAHA İNCƏ,
DÜŞÜNMƏDƏN, DAŞINMADAN, BƏR-BƏZƏKSİZ, ÇOX SADƏCƏ.
SƏNİ SEVDİM YERƏ HƏSRƏT YAĞIŞ KİMİ, LEYSAN KİMİ,
SƏNİ SEVDİM GÖZƏLLİYƏ HEYRAN OLAN İNSAN KİMİ.
SADƏCƏ, ÇOX SEVDİM SƏNİ,
SƏNİ SEVDİM ÇOX SADƏCƏ!..

Bu məktəbdə Əvəz çox şeylər öyrəndi, incəsənət dərnəklərində iştirak etdi, yüksək səviyyədə təhsil aldı. Çox sevinirəm ki, mən də, ailəm də məktəb ailəsinin üzvü olmuşuq. Ümid edirəm ki, bu dostluq hər zaman davam edəcək. Məktəb Nailəxanımın aurasında gözəl fəaliyyətini davam etdirəcək.

Nailəxanım həmişə bizim aramızda, qəlbimizdədir!

Düşünürəm ki, Nailəxanımın mahnıları daim repertuarımda olacaq və onları sevə-sevə ifa edəcəyəm.

Gülyanaq Məmmədova
Azərbaycan müğənnisi, yüksək dərəcəli vokalist,
Azərbaycan Respublikasının Xalq artisti



# Bir ailənin bir-birinə istəyi necə möhtəşəm olarmış?!

HAMLET MÜƏLLİMİN NAİLƏXANIMA OLAN SEVGİSİ, BİR AİLƏNİN BİR-BİRİNƏ OLAN İSTƏYİ NECƏ MÖHTƏŞƏM OLARMIŞ?!



Nailəxanımın adı, xatirələri daim yaddaşlarda yaşayacaq!

Mənim bu gözəl xanımla tanışlığım onun həyat yoldaşı, hörmətli ziyalımız, professor Hamlet İsaxanlı tərəfindən oldu. Nailəxanımı DÜNYA Məktəbində bir rəhbər kimi tanıyanda başqa təəssüratlarım vardı. Lakin Türkiyəyə - Kahramanmaraş və Adana şəhərlərinə bərabər səfərimiz zamanı onu daha da yaxından tanıdım. Nailəxanımın insan sevgisi, hörməti, rəftarı fərqli idi. Mən yaxından tanış olandan sonra ondan çox şeylər öyrəndim.

Fədakar, zəhmətkeş xanım olması ilə yanaşı güclü idi. Həyata sevgisi, iradəsi, inamı, körpələrə, uşaqlara münasibəti, səhnəyə, sənətə, sənətkara hörməti qəlbində elə aşıb-daşırdı ki, onunla söhbətdən doymurdum. Sözü-söhbəti, məsləhətləri mənim üçün çox böyük rol oynayırdı.

Nailəxanım və Hamlet müəllimlə birgə səfərlərimizin hər biri unudulmazdır. Hamlet müəllimin Nailəxanıma olan sevgisi, bir ailənin bir-birinə olan istəyi necə möhtəşəm olarmış?!

Biz hər birimiz yaşadıqca həyatdan dərs alırıq, böyüklərdən örnək götürürük, öyrənirik. Mən də bu gözəl ailənin bütövlüyündən, sevgisindən dərs və təcrübə qazandım.

Nailəxanımın iradəsi, həyata bağlılığı, əxlaqı, mənəviyyatı nümunə idi. Onlar əsl Azərbaycan ailəsidir, bu ailəni çox sevdim, xalqına,vətəninə, millətinə olan sevgisini gördüm, şahidi oldum və özüm üçün də təcrübə topladım.

Nailəxanım hər zaman qəlbimizdə yaşayacaq!



# Письмо

*Это письмо я посвящаю своей любимой тёте, самому замечательному человеку, которого мы на днях потеряли.*

> Уходят те, кто дорог и любим,
> внезапно, безвозвратно, безнадежно.
> Как трудно сердцем пережить
> и осознать то, что невозможно.

Добрая, мудрая, самоотверженная моя Наиля была мне не только тётей, но и сестрой, подругой. А после смерти моей мамы, она оказывала материнскую любовь и поддержку. Её советы, наставления помогали мне по жизни. Её застолья, на которых она собирала своих близких, угощала нас вкусными блюдами, красивой музыкой и любимыми песнями, надолго останутся в моей памяти.

Наиляханум всегда протягивала руку помощи и никогда не отказывала в поддержке. Видя, как болезнь истощает её силы и энергию, она не подавала виду, что болеет, и старалась бороться с этой болезнью с улыбкой на лице и надеждой в душе.

Наиляханум любила жизнь и людей. Они в свою очередь отвечали ей взаимностью. Более 20 лет я работаю рядом с ней в школе "Dunya".



Наиляханум основала, создала и руководила этой школой, посвящая все свои силы, любовь и умение образованию.
Благодаря ей школа "Dunya" стала одной из лучших школ в Азербайджане.
Наиляханум старалась улучшить материально-техническую базу школы и повысить комфортность образовательной среды. Наиляханум сделала всё возможное, чтобы в школе царила дисциплина, и в то же время спокойная, доброжелательная атмосфера, позволяющая раскрыть и реализовать потенциал каждого ученика.
А с какой любовью и радостью Наиляханум готовилась к школьным праздникам, помогая организовать их на высоком уровне.
Дорогая моя Наиля, я буду скучать по тебе, ты всегда будешь в моей памяти.
Я обещаю, что сделаю всё, что в моих силах, чтобы твоё детище ещё долгие годы воспитывало, обучало и дарило нашей родине образованных и счастливых граждан.

**НАИЛЯХАНУМ ОСНОВАЛА, СОЗДАЛА И РУКОВОДИЛА ЭТОЙ ШКОЛОЙ, ПОСВЯЩАЯ ВСЕ СВОИ СИЛЫ, ЛЮБОВЬ И УМЕНИЕ ОБРАЗОВАНИЮ. БЛАГОДАРЯ ЕЙ ШКОЛА "DUNYA" СТАЛА ОДНОЙ ИЗ ЛУЧШИХ ШКОЛ В АЗЕРБАЙДЖАНЕ.**

**Я ОБЕЩАЮ, ЧТО СДЕЛАЮ ВСЁ, ЧТО В МОИХ СИЛАХ, ЧТОБЫ ТВОЁ ДЕТИЩЕ ЕЩЁ ДОЛГИЕ ГОДЫ ВОСПИТЫВАЛО, ОБУЧАЛО И ДАРИЛО НАШЕЙ РОДИНЕ ОБРАЗОВАННЫХ И СЧАСТЛИВЫХ ГРАЖДАН.**



**Рита Гулиева**
**сотрудница Школы ДУНЬЯ**

# O “XƏZƏR”İN "DÖNGƏSİNDƏ, O "DÜNYA”NIN HƏYƏTİNDƏ YENƏ BİZİ GÖZLƏYİRSƏN...

Yaxşı yadımdadır, Vaşinqtonda, "GLOBAL BACILIG'' İnstitutunun sifarişi ilə "HÜQUQLARIMIZIN TƏLƏBI" kitabını tərcümə etdim. Kitab Xəzər Universitəsi ilə birgə layihənin nəticəsində çap olundu. Dərhal Nailəxanımdan bir təklif gəldi: "GƏLIN "XANIMLAR KLUBU" yaradaq və bu kluba respublikamızın tanınmış xanımlarını, bir də xarici qonaqları dəvət edək".

Klubun açılışı çox möhtəşəm oldu. Bundan sonra hər bir yığıncağımız, görüşümüz ailə və qadın problemlərinin həllinə yönəldi. Qonaqlar ən çox Nailəxanımı görmək, onunla daha yaxından tanış olmaq, çay masası ətrafında söhbət etməyə can atırdılar. O özü də öyrənirdi, başqalarına da yol göstərirdi, hamının dərdinə şərik olurdu.



***"Mən, sən , bir də xatirələr... Həmin səhər, həmin " Xəzər", həmin "DÜNYA"... Bilirəm ki, hara getsək, o XƏZƏRİN döngəsində, o DÜNYANIN həyətində yenə bizi gözləyirsən...***

İnsana çox əziz olan bir adam haqqında yazmaq asan deyil, çünki sən onun yoxluğuna inana bilmirsən, söz axtarırsan, tapmırsan. Həm də narahatsan ki, dediyin söz birdən yerinə düşməz. Belə olan halda yazdığın sözlər, cümlələr sanki uzun bir yol gedir və bu itkini başqalarına nisbətən daha çox çəkən adama çatanda sən bilmirsən ki , onun dərdi artacaq, ya azalacaq, bəlkə də, onu ovunduracaq?...

Vaxt keçir, zaman öz işini görür, ancaq hara gedirəmsə, kiminlə danışıramsa, fikrimiz, söhbətimiz sizinlə bağlıdır, əzizim Nailəxanım, 50 ilə yaxın gəncliyim, cavanlığım səninlə keçib, övladlarımız bir böyüyüb, çiyin-çiyinə çalışmışıq, indi də yaşa dolmuşuq. Keçən il mənə deyirdin: "Darıxma, qoy bu virus qurtarsın, daha yaxşı işlər görəcəyik".

Səndə nə qədər gözəl keyfiyyətlər var idi! 4 övlad böyütmüş qururlu ana, bütün yığıncaqlarda öz adına layiq şərəfli yeri olan Nailə dostum!

DÜNYA Məktəbi açılanda çox sevinirdi, sanki 5-ci övladı idi, hamıya öz əliylə yaratdıqlarını göstərmək istəyirdi. Hər tədbirdən sonra məndən soruşardı: "Hə, necə



> 30 İL XƏZƏRDƏ
> YAŞADIQ, YARATDIQ, İLLƏR, AYLAR KEÇDİ, BİR AİLƏ OLDUQ VƏ BU AİLƏNİN BİR ÜZVÜ OLAN NAİLƏXANIM QƏLBİMİZDƏ ŞİRİN XATİRƏ KİMİ YAŞAYACAQ...

idi, xoşuna gəldimi?" Sənin gördüyün işlərdə heç kiməsə xoş gəlməyən bir şey olardımı? Hər dəfə yeni ideyalar, yeni təkliflər icra olunurdu.

Yaxşı yadımdadır, Vaşinqtonda, "Global Bacilig'' İnstitutunun sifarişi ilə "Hüquqlarımızın Tələbi" kitabını tərcümə etdim. Kitab Xəzər Universitəsi ilə birgə layihənin nəticəsində çap olundu. Dərhal Naila xanımdan bir təklif gəldi: "Gəlin "Xanımlar klubu" yaradaq və bu kluba respublikamızın tanınmış xanımlarını və bir də xarici qonaqları dəvət edək". Klubun açılışı çox möhtəşəm oldu. Bundan sonra hər bir yığıncağımız, görüşümüz ailə və qadın problemlərinin həllinə yönəldi. Qonaqlar ən çox Nailəxanımı görmək, onunla daha yaxından tanış olmaq, çay masası ətrafında söhbət etməyə can atırdılar. O özü də öyrənirdi, başqalarına da yol göstərirdi, hamının dərdinə şərik olurdu.

Bir kəsi yaxshi tanımaq üçün onunla yol yoldaşı olmalısan, Bizim xəzərlilərin, ölkəmizin müxtəlif rayonlarına səyahəti unudulmazdır. Bu səyahətlərdə olan əhvalatlar, kollektivin xoş əhval - ruhiyyəsi Nailəxanımla bağlı idi. Quba, Şamaxı, Altıağac, Qəbələ, İsmayıllı və s. bölgələrdə olduğumuz günlər xəzərlilər, ən əsası İngilis dili və Ədəbiyyatı kafedrasının əməkdaşları üçün unudulmaz bir xatirədir.

30 il Xəzərdə yaşadıq, yaratdıq, illər, aylar keçdi, bir ailə olduq və bu ailənin bir üzvü olan Nailəxanım qəlbimizdə şirin xatirə kimi yaşayacaq.

Firəngiz Nəsirova

Xəzər Universitetinin
İngilis Dili və Ədəbiyyatı
Kafedrasının baş müəllimi



**MƏN NAİLƏXANIMI BELƏ TANIDIM. FƏRQLİ DÜŞÜNCƏ, FƏRQLİ BAXIŞ, FƏRQLİ YANAŞMAYA SAHİB OLAN GÖZƏL YARADICI VƏ MUSİQİÇİ XANIM İDİ. POLAD İRADƏSİ VARDI. YAŞAMAQ VƏ YARATMAQ EŞQİ İLƏ ALIŞIB YANIRDI. YENİLİKLƏRƏ İMZA ATMAQ ÜÇÜN MÜCADİLƏ EDİRDİ.**



# YENİLİKLƏRƏ İMZA ATMAQ ÜÇÜN MÜCADİLƏ EDİRDİ...

**Nuriyyə Hüseynova**
Azərbaycan Respublikasının
Əməkdar Artisti, müğənni, muğam ifaçısı.

Bu ailə ilə tanışlığım sənətimə görə olub. Hamlet müəllim şəxsiyyətimə və sənətimə çox böyük hörmətlə yanaşıb. Nailəxanımla da bizim tanışlığımız London hava limanında oldu. Biz bərabər uzaq Kanadaya səfər etdik. Səfər, 14 saat uçaqda bərabər olmaq – bu səmimi dostluğun əsasını qoydu.

Biz Kanadada "AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ – SÖZ, SƏNƏT, MUSİQİ" – adlı bir proqrama dəvət olunmuşduq. Həmin proqramda Hamlet müəllimin şeirləri, Nailəxanımın pianoda gözəl ifası, mənim isə xalq mahnıları və muğamlarını ifa etməyim oradakı soydaşlarımızın ürəyinə su səpmişdi. Çünki biz Azərbaycanın havasını,ruhunu, mədəniyyətini ora aparmışdıq. Olduqca böyük alqışlarla qarşılandıq.

Mən Nailəxanımı orada yaxından tanıdım. Biz hər gün Kanadada gəzirdik, söhbətlər edirdik. O, çox sadə,mütəvaze, mehriban bir xanım idi. Ailə dəyərlərinə qiymət verən, fədakar, zəhmətkeş, qayğıkeş həyat yoldaşı, ana, nənə, müəllimlərini, şagirdlərini, övladlarını düşünən, ən əsası da ömür-gün yoldaşı Hamlet müəllimin sağlığına, səhhətinə, hətta geyiminə qədər xüsusi diqqətini ayıran son dərəcə xanım bir qadın idi.

Fədakar qadın kimi xatirimdə qalıb Nailəxanım. O, çalışdığı kollektivi də ailəsinin bir parçası hesab edirdi.

Məni universitetdə keçirilən tədbirlərə tez-tez dəvət edirdilər, ifamda ən çox çox sevdikləri "SARI GƏLİN" mahnısı olub. Kanadada olarkən "KƏSMƏ ŞİKƏSTƏ" oxumuşdum. İkisi də o qədər sevmişdilər ki, hər dəfə məni görəndə soruşurdular:

- Ay Nuriyyə, şikəstəni lentə aldırdınmı?!

Elə insanlar var ki, onlar dünyaya lider, şəxsiyyət, tanınmış, seçilmiş, yenilikçi olaraq gəlir. Onların həyata baxışı, düşüncəsi, ətrafda canlı, cansız olan hər şeyə yanaşmaları digər insanların münasibətindən fərqli olur. Mən Nailəxanımı belə tanıdım. Fərqli düşüncə, fərqli baxış, fərqli yanaşmaya sahib olan gözəl yaradıcı və yenilikçi, musiqiçi xanım idi. Polad iradəsi vardı. Yaşamaq və yaratmaq eşqi ilə alışıb- yanırdı. Yeniliklərə imza atmaq üçün mücadilə edirdi.

Xatirimdə də belə yaşayacaq!



Həyatda heç zaman unudulmayan şəxsiyyətlər var. Dünya yaranandan bu belədir. Fərqli insanlar var və onların da öz yeri, öz çəkisi var.

Mən Nailəxanım İsayevanı illər öncədən tanımışam və onda heç vaxt ağlıma gəlməzdi ki, nə vaxtsa onun rəhbərlik etdiyi DÜNYA Məktəbində dərs deyəcəyəm.

2015-ci ildən XƏZƏR Universiteti DÜNYA Məktəbində çalışmağa başlayandan Nailəxanımla ilk dəfə yaxından tanış oldum.

Onu çox qayğıkeş mehriban, olduqca məsuliyyətli insan kimi xatırlayıram və gözəl xatirələrim var. Onları saymaqla bitməz.

Yadıma düşür, bir-neçə il əvvəl dərs arası tənəffüs zamanı şagirdlər sinif otağını tez tərk etmiş və şahmat fiqurlarını yerinə düzməmişdilər. Mən otağa dönəndə qapının ağzında Nailəxanımı gördüm, ani olaraq dayandım. Mülayim və mehriban nəzərlərlə:

- Elşad, uşaqlar fiqurları yerinə düzməmişdilər, mən bəzilərini götürüb düzəltdim, qalanlarını da sən düzəlt – dedi və getdi.

Nailə xanım son dərəcə dürüst insan və kübar şəxsiyyət kimi xatirimdə qaldı. Onun dünyasını dəyişməsi xəbəri məni çox sarsıtdı. Mənə çox doğma idi...

Lakin nə etmək olar?! Bu özü də bir həyatdır!

**Elşad Rzayev**
DÜNYA Məktəbinin ŞAHMAT müəllimi FİDE USTASI



ONU ÇOX QAYĞIKEŞ,
MEHRİBAN, OLDUQCA
MƏSULİYYƏTLİ İNSAN KİMİ
XATIRLAYIRAM VƏ
GÖZƏL XATİRƏLƏRİM VAR.



ƏN AZINDAN ÖZ ADIMDAN DEYƏ BILƏRƏM KI, HƏYATIMIN ƏN ÖNƏMLI QƏRARLARININ TƏMƏLINDƏ HƏMTƏSISÇISI OLDUĞU MƏKTƏBIN MƏNƏ AŞILADIĞI DƏYƏRLƏR DAYANIR...

# DÜNYANIN DÖRD BİR BUCAĞINDA OLAN MƏZUNLARIN HƏR BİRİNİN HƏYATINA TOXUNMUŞDU...

Hiss və düşüncələrimi yazmaqda çətinlik şəkdiyim zamanlardan biridir…

Bu gün uşaqlığımın ən həssas xatirələrindən birini itirdim. Bizi DÜNYA Məktəbində həyata hazirlayib yola salan əziz Nailəxanımın dünyamızdan köçdüyü gündür.
Lakin geridə bu qədər gözəl xatirə qoyub getmək hər kəsə nəsib olmur. Hal-hazırda dünyanın dörd bir bucağinda olan məzunların hər birinin həyatına toxunmuşdu. Ən azından öz adımdan deyə bilərəm ki, həyatımın çox önəmli qərarlarının təməlində rəhbərlik etdiyi məktəbin mənə aşıladığı dəyərlər dayanır. Belə özəl insanı yaxından görə bilmək, onun "balam" deyə xitab etdiyi sagirdlərdən biri olmaq qürur hissi yaşadır!



Sevinc Hacıyeva
DÜNYA Məktəbinin məzunu – 2013



# HAMIMIZIN İLHAM MƏNBƏYİ...

NAİLƏXANIM
ELƏ GÖZƏL İNSANİ
KEYFİYYƏTLƏRƏ MALİK İDİ Kİ,
BİZ ONU GÖRƏNDƏ
YAXINLAŞIB SÖHBƏT EDƏR,
DƏRSLƏRİMİZ HAQQINDA
DANIŞAR VƏ BİR NÖV
DƏRDLƏŞƏRDİK...

Nailəxanım tanıdığım ən mehriban, səmimi və güləruz insanlardan biri idi. Mən DÜNYA Məktəbində oxuduğum dövrdə direktorumuz idi. O illərdə orta məktəblərdə dəhlizlərdə şagirdlər direktordan çəkinər, onu görəndə gizlənərdilər. Nailəxanım elə gözəl insani keyfiyyətlərə malik idi ki, biz onu görəndə, əksinə, yaxınlaşıb söhbət edər, dərslərimiz haqqında danışar və bir növ dərdləşərdik.

O, daim şagirdlərin əhatəsində olmağı sevirdi və bu bizim onu daha yaxından tanımağımıza kömək edirdi. Məktəb tədbirlərində Nailəxanımı görməmək mümkün deyildi. Hamımızın ilham mənbəyi idi. Bizə öz övladı kimi münasibət bəsləyər və uğurlarımıza valideynlərimiz qədər sevinərdi.

Düşünürəm ki, Nailəxanımla bağlı xatirələr, onun haqqında demək istədiyim gözəl sözlər cümlələrə sığmaz. Nə yaxşı ki, onu tanımışam...




**Niftalı Qasımlı**
DÜNYA Məktəbinin məzunu - 2010



# BİR ANA KİMİ BİZƏ HƏSSALIQLA YANAŞIRDI...

Nailəxanım hər zaman uğurlarımızla fəxr edirdi. O, hələ kiçik yaşlarımızdan direktorluqdan daha çox, bir ana kimi bizə həssaslıqla yanaşardı. Nailəxanımı ailəmiz, özümüz hər zaman xoş xatirələrlə yada salmışıq, hər yerdə və ömrümüz boyu da belə qalacaq yaddaşımızda...

Ziya Rzalı
DÜNYA Məktəbinin məzunu - 2009

## DÜNYA MƏKTƏBİNİN MƏZUNLARI - 2009

# NAİLƏ XANIM SEÇİLƏN İNSAN İDİ...

Kədərimi sözlərlə ifadə etmək çox çətindir. Nailəxanim məktəbdə bütün şagirdlərin sevimlisi idi. Hamimiza gaygıyla, sevgıylə yanaşıb hər zaman əhval-ruhiyyəmiz və dərslərimizlə maraqlanardi. O, hər özünün savadı, bacarıgı, intellektual səviyyəsi ilə seçilən insan idi və əminəm ki, yüzlərlə şagirdin də qəlbində sonsuza qədər yaşayacaq!

Ona olan sevgim və hörmətim əbədidir!



Səma Namazlı
DÜNYA Məktəbinin məzunu - 2009



Toghrul Mammadov

Dunya IB Graduate 2014

## WHOSE STRONG PRESENCE BOTH EMPOWEREDAND INSPIRED EVERYONE AROUND HER.

**Education:** Masters in Architecture - Newcastle University
**Work:** Chapman Taylor Architects

Mrs. Nailakhanym Isayeva was an outstanding persona, whose strong presence both empowered and inspired everyone around her. She has managed to create a family within an institution, while managing everything, which is an achievement on its own. She will always be remembered as an inspiring, positive and loving lady, who took care of everyone around her.

## SƏXAVƏTLƏ BİLİKLƏRİNİ VƏ TƏCRÜBƏSİNİ BİZLƏRLƏ BÖLÜŞDÜ...

İşinə sonsuz bağlı olan parlaq və mehriban bir insan bizləri tərk etdi. Nailəxanım özünü tamamilə DÜNYA Məktəbinə - şagirdlərinə həsr etdi. O, səxavətlə biliklərini və təcrübəsini bizlərlə bölüşdü. İstedadlı və yüksək pedoqoji bacarığı olan bu böyük şəxsiyyət şagirdlərinin, həmçinin məktəbin işçi kollektivinin sevgisini qazandı.

Nailəxanım DÜNYA Məktəbinin Azərbaycanda ən nümunəvi məktəblərdən birinə çevrilməsində yetərincə əmək sərf etdi. Biz məzunlar bu gün dünyanın hər yerində fəxrlə deyə bilirik ki, belə bir gözəl məktəbdə təhsil almışıq. Nailəxanımın parlaq xatirəsi həmkarlarının, tələbələrinin, dostlarının, onu tanıyan hər kəsin qəlbində daima yaşayacaqdır.



Pərvanə Yusifova

DÜNYA Məktəbinin məzunu – 2009



Aytac Akif Xaqani
DÜNYA Məktəbinin məzunu - 2019
Ankara Başkent Universiteti
Tibb Fakültəsinin tələbəsi

# BİZƏ GÖZƏL UŞAQLIQ DÜNYASI BƏXŞ EDƏN QADIN...

Bəzi insanlar vardır, biz bilmədən bizə dünyanı bəxş edən, ruhumuzu oxşayan, qəlbimizdəki arzularımızı oxuyan!

Çox dəyərli Nailə müəllimə də bizə insanlığı, sevgini, hörməti və diqqəti öyrətdi. O, bizə gözəl uşaqlıq dünyası, şirin xatirələr bəxş etdi.

"Mənim balalarım" deyəndə uçardıq. Elə xoşbəxt olurduq ki... Gözəl sözlərlə əzizləyirdi bizi...

Nailə müəllimə ilə biz bir ailə idik...

Qulağımızda sevgi dolu həzin səsi, xatirimizdə parlaq gözləri, təbəssüm dolu baxışları, nurlu çöhrəsi qaldı...

**NURA QOVUŞAN NAİLƏ MÜƏLLİMƏ!!!**

# MAARİFÇİ-ZİYALI, ZƏRİF QƏLBLİ, GÖZƏL İNSAN...

Xəzər Universiteti DÜNYA Məktəbinin ilk məzunu olaraq, burada təhsil aldığımız 11 il ərzində Nailəxanım özünün zəhməti, qayğısı ilə həyatımıza çıraq oldu..

O, əsl maarifçi-ziyalı, böyük müəllim, həssas qəlbli insan idi. Belə şəxsiyyətlərin adı tarixdə əbədiləşir.

Nailəxanımın ən böyük əsəri DÜNYA Məktəbi, onun məzunlarıdır. Nə qədər ki, DÜNYA Məktəbi yaşayır, nə qədər ki, onun məzunları yaradır, qurur, vətənə, xalqa xidmət edir, Nailəxanımın da xatirəsi yaşayacaq!



Fuad İslamlı
DÜNYA Məktəbinin məzunu - 2009



# KİÇİK DÜNYAMIZI BÖYÜK DÜNYAYA ÇEVİRDİ...

Uşaqlıq dünyamızı şirin söhbətləri, şəfqət dolu baxışları, qayğı və mehribanlığı ilə bəzəyən Nailəxanım! Sayənizdə məktəb bizə doğma ev olmuşdu.

Orada oxuyur, biliklərimizi artırır, dünyagörüşümüzü genişləndirir və yavaş-yavaş böyüyürdük.

Həyata, insanlara sevgi aşıladınız bizə...

Həmişə düşünürdüm ki, görəsən bu qədər sevgini Nailəxanım hamımıza necə bəxş edə bilir?! Sonralar anladım ki, sevgi dolu insanlar var, belə insanlar Allahın insanlığa və yer üzünə lütfüdür...

Nərgiz Yusifli Abdullayeva
DÜNYA Məktəbinin məzunu – 2013

# I BELIEVE SOME PEOPLE LIVE FOREVER AND MRS NAILAKHANYM ISAYEVA IS ONE OF THEM...

As her student, I will always remember her as a strong woman who everyone without an exception loved and respected. Although I find it hard to believe she is no longer with us, what she has left behind is truly inspiring and a sign of life well lived.



Esmiralda Shirinova
DÜNYA Məktəbinin məzunu - 2014

İri ağacların kölgəsində, sıx otların arasında bir çiçək gizlənmişdir. Onun iti uclu iki böyük oval yarpağı, yarpaqlarının arasında isə üzərində zınqırova oxşayan bir-neçə kiçik ağ çiçəkdən ibarət uzun, nazik zoğu vardır. Bu, İNCİÇİÇƏYİDİR...

Onun çiçəklərini və yarpaqlarını dərhal tanıyacaqsınız. Bu çiçəyi sevənlər, ondan dəstə bağlayanlar bilmirlər ki, inciçiçəyinin giləmeyvələri olur: İri, qırmızı rəngli giləmeyvələr... Bu giləmeyvələr gözlə yaxşı seçilir, lakin adamlar inciçiçəyini yazda yığdıqları üçün meyvəsinə təsadüf etmirlər. Axı, bu bitki yazda çiçək açır, onun meyvələri isə yayın axırlarında əmələ gəlir.

## İRİ AĞACLARIN KÖLGƏSİNDƏ, SIX OTLARIN ARASINDA BİR ÇİÇƏK GİZLƏNMİŞDİR...

İnciçiçəyi xoş ətirli gözəl çiçək olması ilə bərabər, həm də dərman bitkisidir. Onun zəhərli şirəsindən ürəyi xəstə olan adamlar üçün dərman hazırlayırlar.

İnciçiçəyi, eyni zamanda, dekorativ və efiryağlı bitkidir. Bu çiçəyin Azərbaycanda və Qafqazda müxtəlif növləri yayılmışdır.





*Bir mənalı*
*həyat hekayəsi ...*

Dünya Məktəbi

XƏZƏR UNİVERSİTETİ

İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR
VƏ MEDİA

---

Jurnalın üz qabığında
Hamlet İsaxanlının
"SƏNSİZLİK" şeirinin
misralarından istifadə olunmuşdur.